**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi**

# Azərbaycan Respublikası
# Mədəniyyət və Turizm
# Nazirliyinin illik
# HESABATI
# 2009

**Bakı – 2010**

**Buraxılışa məsul:**

**Firudin Qurbanov**

**Redaktorlar:**

**Vaqif Quliyev**

**Tehran Vəliyev**

**Azərbaycan Respublikası Mədəniyyət və**
**Turizm Nazirliyinin illik HESABATI – 2009**
**Bakı. "Nağıl evi" 2009, səh. 80**

2009-cu il Azərbaycan Respublikasının bütün sahələrin də dinamik inkişafla əlamətdar olmuşdur. Yaradılmış işgüzar mühit, mədəniyyət və turizm sahəsində bir sıra böyük layihələrin reallaşmasını təmin etmiş, Azərbaycanın dünya ölkələri arasında mövqeyinin daha da güclənməsi baxımından əhəmiyyətli olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gərgin əməyi, təşəbbüskarlığı, qətiyyətli qərarları ilə bir-neçə il öncə yalnız arzu olunan mütərəqqi işlər reallığa çevrilmişdir.

Ölkə Prezidentinin mədəniyyət və turizm sahələrinə dair imzaladığı fərman və sərəncamlar, verdiyi göstəriş və tapşırıqlar, iri miqyaslı mədəniyyət və turizm layihələrinin dövlət tərəfindən yaxından dəstəklənməsi uğurlu nəticələrin əsas bazasına çevrilmişdir.

2009-cu il əsasən “Bakı – İslam mədəniyyətinin paytaxtıdır – 2009” beynəlxalq layihəsi və bu layihə çərçivəsində həyata keçirilən çoxsaylı tədbirlərlə xarakterizə olunur. Eyni zamanda bu il mədəniyyət və turizm sahələrində həm yerli, həm beynəlxalq səviyyəli digər layihələr həyata keçirilmiş, eyni zamanda xalqımız tərəfindən mədəniyyətin inkişafına bəslənən ictimai fəallıq artmışdır.

İncəsənət, mədəniyyət siyasəti, mədəni irsin qorunması, turizmin və beynəlxalq mədəni əlaqələrin inkişafı, nəşriyyat, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr məsələlərinin həlli və digər məsələlərlə bağlı qısa məlumatları təqdim edirik.

## İNCƏSƏNƏT

2009-cu ildə İncəsənət sahəsində ölkəmizdə və onun hüdudlarından kənarda 100-ə yaxın dövlət əhəmiyyətli tədbir keçirilmiş, Dövlət teatrlarında 87 yeni və əsaslı bərpa olunmuş tamaşalar hazırlanmış, Azərbaycan incəsənət ustalarının

dünyanın ən müxtəlif ölkələrinə səfərləri təşkil edilmiş, ölkə daxilində və xaricdə müxtəlif təsviri tətbiqi sənət sərgiləri keçirilmişdir.

"Bakı 2009 İslam Mədəniyyətinin paytaxtı" elan olunması ilə əlaqədar tədbirlər planına əsasən 6-13 mart tarixində Muzey Mərkəzində «Qadın portretləri» adlı sərgi, «Şərq və Qərb moda təqdimatı», habelə Azərbaycan qadın bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil edilmişdir.

18-25 mart tarixlərində Heydər Əliyev Fondu və Azərbaycan Bəstəkarlar İttifaqı ilə birgə Bakıda «Muğam aləmi» Beynəlxalq Muğam Festivalı keçirilmişdir. Festival çərçivəsində Beynəlxalq Elmi Simpozium, Beynəlxalq Muğam müsabiqəsi və festival konsertləri silsiləsi təşkil olunmuş, eyni zamanda, 2009-cu ilin martında I Respublika Muğam müsabiqəsi keçirilmişdir. Müsabiqəyə 100 -dən artıq ərizə verilmişdir. Respublika müsabiqəsinin qalibləri Təyyar Bayramov (I yer), Vəfa Orucova (II yer), Babək Niftəliyev (III yer), və diplomantlar - Arzu Əliyeva və Səbuhi İbayev ölkəmizi Beynəlxalq Muğam Müsabiqəsində təmsil etmişlər.

Beynəlxalq Muğam Müsabiqəsi 22-24 mart tarixlərində Azərbaycan Dövlət Kukla Teatrında keçirilmişdir. Müsabiqəyə İran, Suriya, İraq, Mərakeş, Özbəkistan, Tacikistan, Qazaxıstan, Misir, Türkiyə və Almaniyadan 67 iştirakçı qatılmışdır. Festival konsertlərində 10 ölkədən - İraq, Mərakeş, İran, Suriya, İtaliya, Çin, Hindistan, Misir, Özbəkistan, Azərbaycandan musiqiçilər çıxış etmişlər. Beynəlxalq Muğam Mərkəzində keçirilmiş konsertlərdə Azərbaycan muğam ustalarının ifasında yeddi əsas Azərbaycan muğamı ifa olunmuşdur. Muğamları Alim Qasımov, Mənsum İbrahimov, Mələkxanım Əyyubova, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Nuriyyə Hüseynova, Zabit Nəbizadə ifa etmişlər.

Festival çərçivəsində F.Əmirovun, Niyazinin, A.Əlizadənin, N.Əliverdibəyovun, C.Cahangirovun əsərləri ifa olunmuşdur. Konsertlərdə tanınmış Braziliya dirijoru Silvio Sergio Barbato və Fəxrəddin Kərimov dirijorluq etmişlər.

Beynəlxalq Muğam Müsabiqəsində Qran-Pri Təyyar Bayramova (Azərbaycan), Birinci mükafat Yıldız Turdiyevaya (Özbəkistan), ikinci mükafat Məhəmməd Motamediyə (İran), üçüncü mükafat Mustafa Səidə (Misir) verilmişdir. Tacikistan musiqiçisi Xurşid İbrahimov «Qarabağ şikəstəsi»nin ən yaxşı ifasına görə

Mədəniyyət və Turizm Nazirliyinin xüsusi diplomu və pul mükafatına, Arzu Əliyeva (Azərbaycan) müsabiqənin ən gənc iştirakçısı kimi Azərbaycan Bəstəkarlar İttifaqının xüsusi diplomu və pul mükafatına layiq görülmüşdür. Mart ayının 25-də Heydər Əliyev Sarayında Muğam Müsabiqəsinin qaliblərinin və incəsənət ustalarının iştirakı ilə bağlanış mərasimi keçirilmişdir.

Azərbaycan, SSRİ və Rusiyanın Xalq Rəssamı Tahir Salahovun 80 illik yubiley tədbirləri çərçivəsində Moskvada Yekaterininski Fondunda hazırlanmış sərginin açılış mərasimi keçirilmişdir.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı yanvar ayının 20-dən 30-dək Ankara və Kayseri şəhərlərində Xalq Şairi Bəxtiyar Vahabzadənin «Özümüzü kəsən qılınc» tamaşası ilə qastrol səfərində olmuşdur.

2 fevral - Respublika Gənclər Günü münasibətilə «Gəncliyin səsi» adı altında silsilə tədbirlər - Azərbaycan Dövlət Filarmoniyasında Uşaq-Gənclər Simfonik Orkestrinin konserti, Muğam Teatrında gənc muğam ifaçılarının iştirakı ilə muğam axşamı keçirilmiş, Rəssamlar İttifaqı ilə birgə V.Səmədova adına Sərgi Salonunda gənc rəssamların sərgisi təşkil olunmuş və onların əsərlərindən ibarət kataloq çap edilmişdir. Gənc jurnalistlər Nazirliyin Fəxri Fərmanı ilə təltif olunmuşlar.

Fevral ayının 4-12-də Almaniyanın Köln şəhərində Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, istedadlı bəstəkar Elmir Mirzəyev «Ensemble Reflexion K» kollektivinin konsertlərində və ustad dərslərdə iştirak etmişdir.

Fevral ayının 28-də Bədii Sərgi Salonunda Xocalı soyqırımının 17-ci ildönümünə həsr olunmuş sərgi hazırlanmışdır.

Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, Xalq Yazıçısı, «Şöhrət» ordenli, SSRİ, Rusiya və Azərbaycan Dövlət mükafatları laureatı, dramaturq, kinorejissor, ictimai xadim, professor Rüstəm İbrahimbəyovun 70 illiyi münasibətilə Moskva şəhərində yubiley tədbirləri keçirilmişdir.

Misirin Xurqada şəhərində keçirilmiş Uşaq və Gənclərin «Serdtse mira» adlı Beynəlxalq müsabiqə-festivalında Azərbaycan Respublikasını Bakı Musiqi Akademiyasının IV kurs tələbəsi Ülkər Hacılı təmsil etmişdir.

İrəvan Dövlət Azərbaycan Dram Teatrı «Körpü», "Xilaskar" və "Subaylarınızdan görəsiniz" tamaşaları ilə Tbilisi şəhərində K.Marcanişvili adına Dram Teatrında, Ş.Rustaveli adına Dövlət Dram Teatrında, Gürcüstanın Kvemo-Kartli bölgəsində çıxış etmişdir.

Mart ayının 10-da Muğam Teatrında Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi «Zirvə» mükafatının növbəti təqdimat mərasimi keçirilmişdir. «Milli sərvət» bölməsi üzrə mükafat Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktrisası, Xalq Artisti, «Şöhrət» ordenli, Prezident təqaüdçüsü Firəngiz Şərifovaya, Teatr sahəsi üzrə Qara Qarayevin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulan «Yeddi gözəl» baletində əsas balet partiyalarının ifaçılarına, Təsviri sənət sahəsi üzrə Azərbaycan, SSRİ və Rusiyanın Xalq Rəssamı, Prezident təqaüdçüsü, «İstiqlal» ordenli Tahir Salahova, Kino sahəsi üzrə «Hökmdarın taleyi» bədii filminin yaradıcı qrupuna, «Debüt» bölməsi üzrə gənc dirijor Əyyub Quliyevə, Musiqi sahəsi üzrə SSRİ Xalq Artisti, Prezident təqaüdçüsü, «İstiqlal» ordenli, akademik Arif Məlikova təqdim olunmuşdur.

Mart ayının 13-dən 17-dək Gürcüstanda yaşayan soydaşlarımızın mənəvi ehtiyaclarını ödəmək, habelə qonşu ölkədə milli dəyərlərimizin təbliği məqsədilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı Novruz bayramı ərəfəsində kiçik heyətlə Gürcüstanda səfərdə olmuş və burada konsert proqramları ilə çıxış etmişlər.

14-15 mart tarixində Azərbaycan Dövlət Rus Dram Teatrında Dövlət sifarişi ilə hazırlanmış «Torağay» tamaşasının premyerası (quruluşçu rejissor Finlandiyanın «Ağ və qara» Teatrının bədii rəhbəri Kamran Şahmərdan, tərtibatçı Sankt - Peterburqlu rəssam Tatyana Melnikova) keçirilmişdir. Tamaşanın premyerasında iştirak etmək üçün Moskvadan tanınmış teatrşünaslar Anastasiya Yefremova və Maya Romanova Bakıya dəvət olunmuşlar.

Novruz bayramı münasibətilə Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyində Dövlət Rəqs Ansamblının solistlərinin, Almaniyada Əməkdar Artist Tünzalə Ağayevanın konsertləri keçirilmiş, hər çərşənbə günü «Yanardağ» Dövlət Tarix -Mədəniyyət və Təbiət Qoruğunda Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının iştirakı ilə konsert proqramları nümayiş edilmişdir.

2009-cu il martın 20-də İçərişəhərdə respublikanın teatr-tamaşa və konsert müəssisələrinin iştirakı ilə Novruz bayramına həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva, YUNESKO-nun Baş katibi cənab K.Matsuura, mədəniyyət və siyasət xadimləri iştirak etmişlər.

Mart ayının 22-24-də Cenevrədə BMT-nin binasında - Millətlər Sarayında keçirilmiş tədbirdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, Xalq Artisti, Prezident mükafatçısı Nəzakət Teymurova, tarzən Əliağa Sədiyev, kamançaçı Xəyyam Məmmədov iştirak etmişdir.

Xalqımıza qarşı törədilmiş soyqırım faktlarının nümayişi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə Bədii Sərgi Salonunda 31 mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş sərgi təşkil edilmiş, rəssam Vaqif Ucatayın qrafika əsərləri nümayiş olunmuşdur.

Dövlət sifarişi yolu ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında İ.Ştrausun «Düyməcik» baletinin, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında İ.Kalmanın «İddialı qaraçı», S.Fərcovç və Ə.Nesinin "Şəhərdə manyak var" operettalarının, U.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının, Azərbaycan Dövlət Rus Dram Teatrında J.Anuyun "Torağay", Elçinin «Cəhənnəm sakinləri», Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında H.Cavidin "Şeyx Sənan", C.Cabbarlının "Aydın", M.F.Axundovun "Xırs quldurbasan", C.Məmmədquluzadənin "Məkkəyə gedən yol", «Yuğ» Dövlət Teatrında A.Çexovun «Birinci akt», Azərbaycan Dövlət Kukla Teatrında U.Şekspirin «Yay gecəsində yuxu», Naxçıvan Dövlət Musiqili Dram Teatrında Elçinin «Ah Paris, Paris», Naxçıvan Dövlət Kukla Teatrında C.Məmmədquluzadənin «Çay dəsgahı», Lənkəran Dövlət Dram Teatrında M.Xubainin "Şeytanın oyunları", Gəncə Dövlət Dram Teatrında Elçinin «Ölüm hökmü», T.Cücenoğlunun "Gəlöçzələr", Gəncə Dövlət Kukla Teatrında R.Səməndərin «Çətin məsələ», İrəvan Dövlət Azərbaycan Dram Teatrında M.F.Axundovun "Lənkəran xanının vəziri", Salyan Dövlət Kukla Teatrında R.Əlizadənin «Tülkünün uçuşu», Şəki Dövlət Dram Teatrında M.Kərimin "Ay tutulan gecə", Şuşa Dövlət Musiqili Dram Teatrında E.Abdullayevanın «Ağ qayıq»,

Ç.Aytmatovun “Dəniz kənarı ilə qaçan alabaş”, Qax Dövlət Kukla Teatrında Ü.Hacıbəylinin “O olmasın, bu olsun” tamaşaları hazırlanmışdır.

Aprel ayının 1-də Yevlax şəhərində Xalq Teatrının və Heydər Əliyev Sarayının yeni binalarının açılış mərasimində Dövlət Pantomima Teatrı, Xalq Çalğı Alətləri Orkestri və solistlər çıxış etmişlər.

Aprelin 2-də Gəncə şəhərində I Ümumrespublika Dekorativ tətbiqi sənət Festivalı çərçivəsində Gəncədə ilk regional sərginin açılışı keçirilmişdir. Sərgidə bölgənin 14 rayonundan 50-dən artıq dekorativ sənət ustalarının əl işləri nümayiş olunmuşdur.

2-6 aprel tarixində Moskva şəhərində keçirilən «PRO -TEATR» yarmarkasında ilk dəfə olaraq Azərbaycan teatrı təmsil olunmuşdur.

Aprelin 8-də Azərbaycan Dövlət Filarmoniyasında Litva M.Rostropoviç Fondu və Azərbaycan Respublikası Prezidenti təqaüdçülərinin konserti keçirilmişdir.

Aprel ayının 10-da Azərbaycan Dövlət Muğam Teatrında Xalq Artisti, görkəmli müğənni Teymur Mustafayevin anadan olmasının 70 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

12-16 aprel tarixlərində Dərbənd Dövlət Azərbaycan Dram Teatrının «Arşın mal alan» tamaşası ilə Bakı və Xırdalan şəhərlərinə qastrol səfərləri keçirilmişdir.

Aprel ayının 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının binasının əsaslı təmirdən sonra açılışı keçirilmişdir.

Aprelin 14-də V.Səmədova adına Sərgi salonunda Xalq Rəssamı Məmmədağa Hüseynovun 80 illik yubileyinə həsr olunmuş sərgi keçirilmişdir. Sərgidə rəssamın müxtəlif illərdə çəkdiyi 30-dan artıq əsər və kinofilm üçün eskizləri nümayiş etdirilmişdir.

Aprelin 17-də Azərbaycan Dövlət Filarmoniyasında görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq Artisti, professor Ramiz Mirişlinin anadan olmasının 75 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Konsertdə Xalq Artisti, dirijor R.Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət

Simfonik Orkestrinin ifasında bəstəkarın simfonik əsərləri ifa edilmiş, Filarmoniyanın foyesində sərgi nümayiş olunmuşdur.

18-26 apreldə Türkiyənin Konya şəhərində «Bir səs min bir nəfəs» adlı Beynəlxalq Teatr Festivalında Milli Akademik Dram Teatrı T.Cücenoğlunun «Uçqun» tamaşasını nümayiş etdirmişdir.

2009-cu il may ayının 2-dən 29-dək İstanbul şəhərində «V TÜRKSOY Fotoqraflar Görüşü»ndə fotoqraf Əqdəs Bağırzadə iştirak etmişdir.

May ayının 1-də Lənkəran şəhərində I Ümumrespublika Dekorativ tətbiqi sənət Festivalı çərçivəsində II regional sərginin açılışı keçirilmişdir. Sərgidə bölgənin 12 rayonundan dekorativ sənət ustalarının əl işləri nümayiş olunmuşdur.

May ayının 4-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq Yazıçısı İsmayıl Şıxlının anadan olmasının 90 illiyi münasibətilə yubiley tədbiri keçirilmişdir.

May ayının 7-də Azərbaycan Dövlət Filarmoniyasında tanınmış Azərbaycan bəstəkarı Asəf Zeynallının anadan olmasının 100 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir. Tədbirdə Əməkdar İncəsənət Xadimi, dirijor Fəxrəddin Kərimovun rəhbərliyi ilə Ü.Hacıbəylı adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında bəstəkarın əsərləri ifa olunmuşdur. Filarmoniyanın foyesində bəstəkara həsr olunmuş foto və kitab sərgisi nümayiş olunmuşdur.

May ayının 8-10-da İsveçrənin Cenevrə şəhərində Ənənəvi Türk Günü tədbirində Azərbaycanın incəsənət ustaları, Respublika Muğam müsabiqələri laureatı, Prezident təqaüdçüsü Babək Niftəliyev, tarzən Ayaz İmranov, kamançaçı Elnur Mikayılov, rəqqasə Rəna İbrahimova və rəqqas Elnur Süleymanov iştirak etmişlər.

14 may – 14 iyun 2009-cu ildə Türkiyədə keçirilən «XII TÜRKSOY Rəssamlar Görüşü»ndə rəssam Anar Hüseynzadə iştirak etmişdir.

May ayının 15-də Şəki şəhərində I Ümumrespublika Dekorativ tətbiqi sənət Festivalı çərçivəsində III regional sərginin açılışı keçirilmişdir. Sərgidə bölgənin 12 rayonundan dekorativ sənət ustalarının əl işləri nümayiş olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan gəncliyi Dövlət Proqramı»nın tədbirlər planına (2005-

2009-cu illər) uyğun olaraq 2009-cu il 15-17 may tarixlərində Zağulbada yerləşən «Gənclik» Beynəlxalq Turizm Mərkəzində «Yaradıcı gənclərin aktual problemləri və inkişaf meylləri» adlı III Respublika görüş-seminarı keçirilmişdir. 100 nəfərə yaxın yaradıcı gəncin qatıldığı görüş-seminarda teatr, musiqi və təsviri sənət sahələri üzrə diskussiyalar aparılmış və gənclərlə bağlı qətnamə qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 may 2009-cu il tarixli, 277 nömrəli Sərəncamı ilə «Azərbaycan Teatrı 2009-2019-cu illərdə» Dövlət Proqramı təsdiq edilmişdir. Bununla əlaqədar müvafiq tədbirlər planı hazırlanmış, onun icrası ilə bağlı bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Mayın 19-da Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Respublikasının Xalq Artisti, Prezident təqaüdçüsü qocaman rəqqasə Roza Cəlilovanın anadan olmasının 80 illik yubileyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Ukrayna Mədəniyyət və Turizm Nazirliyi arasında 2008-2012-ci illər üzrə əməkdaşlıq haqqında Protokola əsasən 2009-cu il 20-24 may tarixlərində Ukraynada Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Azərbaycandan Ukraynaya yola düşən 80 nəfərlik nümayəndə heyətinə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri cənab Əbülfəs Qarayev rəhbərlik etmişdir.

May ayının 20-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Xalq Artisti Rza Əfqanlının anadan olmasının 100 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir. Mayın 22-də Qazax rayonunda Molla Vəli Vidadinin anadan olmasının 300 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Azərbaycanın görkəmli sənətçiləri çıxış etmişlər.

Mayın 20-26-da Estoniyanın Vilyandi şəhərində keçirilən Kukla Teatrlarının "Teatr çemodanda" adlı Beynəlxalq Festivalında Qax Dövlət Kukla Teatrı R.Əlizadənin "Tülkünün uçuşu" tamaşası ilə iştirak etmişdir.

Mayın 26-da Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Dövlət mükafatı laureatı, Xalq Yazıçısı İlyas Əfəndiyevin anadan olmasının 95 illiyi münasibətilə Fəxri Xiyabandakı məzarı ziyarət edilmiş, Rus Dram Teatrında Akademik Milli Dram Teatrın "Xurşudbanu Natəvan" tamaşası nümayiş olunmuşdur.

İyun ayının 1-də Xaçmaz şəhərində I Ümumrespublika Dekorativ-tətbiqi sənət Festivalı çərçivəsində regional mərkəzlərdə təşkil olunan sərgilərdən sonuncu sərgi nümayiş olunmuşdur. Sərgidə Xaçmaz, Dəvəçi, Siyəzən, Xızı, Quba, Qusar, Şamaxı, Hacıqabul və Qobustan rayonlarında yaşayan dekorativ -tətbiqi sənət ustalarının əsərləri nümayiş etdirilirdi.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il «Uşaq İli» elan edilməsi haqqında 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il iyun ayının 1-də Azərbaycan Dövlət Filarmoniyasında Uşaqların Müdafiə Günü münasibətilə konsert keçirilmişdir.

2009-cu ilin iyun ayının 1-dən 10-dək Almaniyanın Berlin şəhərində “Berlin-Bakı” qalereyasında Xalq rəssamı Arif Hüseynov və Orxan Hüseynovun əsərlərindən ibarət sərgi keçirilmişdir.

2009-cu il iyun ayının 5-də İtaliyanın Venesiya şəhərində 53-cü Venesiya Biennallesinin – yeni Ümumdünya Müasir İncəsənət Sərgisinin rəsmi açılışı keçirilmişdir. Sərgidə dünya şöhrətli Azərbaycan rəssamı Tahir Salahov, Nailə Sultan, Teymur Rüstəmov, Teymur Daimi, Niyaz Nəcəfov, Fərid Rəsulov, Tərlan Qorçu, və «Xətt» İncəsənət qrupunun əsərləri nümayiş olunmuşdur.

2009-cu il 8-12 iyun tarixlərində Azərbaycanda Qətər Dövlətinin Mədəniyyət Günləri keçirilmişdir. 58 nəfərdən ibarət nümayəndə heyətinə Qətərin Mədəniyyət, İncəsənət və İrs Milli Şurasının Baş Katibi Mübarək Bin Nasir Əl-Xəlifə başçılıq etmişdir. Mədəniyyət Günlərinin rəsmi açılış mərasimi iyunun 9 -da Muzey Mərkəzində keçirilmişdir.

2009-cu il iyun ayının 11-14-də Rusiyanın Sankt-Peterburq şəhərində ənənəvi “Gəlincik zamanı – YAY” adlı Beynəlxalq Gəlincik Sərgisində gəlincik ustaları Pərviz Hüseynov və İrina Qundorina Azərbaycanı təmsil etmişlər.

«Mehdi Hüseynin 100 illik yubileyinin keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2009-cu il tarixli 127 nömrəli Sərəncamının icrası məqsədilə iyun ayının 12-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında görkəmli ədib, Xalq Yazıçısı Mehdi Hüseynin anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

İyun ayının 12-də Azərbaycan Dövlət Filarmoniyasında görkəmli müğənni, SSRİ Xalq Artisti, professor Lütfiyar İmanova həsr olunmuş xatirə gecəsi keçirilmişdir.

2009-cu il iyun ayının 16-dan 20-dək Gürcüstanda Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Qonşu ölkədə mədəniyyətimizi təmsil etmiş 90 nəfərlik nümayəndə heyətinə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev rəhbərlik etmişdir. Mədəniyyət Günlərinin təntənəli açılış mərasimi, Z.Paliaşvili adına Tbilisi Dövlət Opera və Balet Teatrında keçirilmişdir. Tbilisidəki "Karvansara" şəkil qalereyasında Müasir Azərbaycan İncəsənəti sərgisi açılışmışdır. Azərbaycan incəsənət ustaları Gürcüstan azərbaycanlılarının yığcam yaşadıqları Kvemo Kartli-Borçalı bölgəsinin inzibati mərkəzi Rustavi şəhərində, Bolonisi rayonunda geniş konsert proqramı ilə çıxış etmişlər. 2009-cu il iyunun 18-də Tbilisidəki K.Marcanişvili adına Dövlət Akademik Dram Teatrında Azərbaycan Dövlət Pantomima Teatrı Z.Zeynalovun "Maska" tamaşasını təqdim etmişdir. İyunun 18-də Azərbaycan-Gürcüstan Hökumətlərarası Komissiyasının (alt komissiyasının) birinci iclası keçirilmişdir.

2009-cu il iyun ayının 18-dən 22-dək Moskvada "Ənənə və müasirlik" adlı III Beynəlxalq İncəsənət Festivalı keçirilmişdir. Ölkəmizi Əməkdar rəssam Fərman Qulamov təmsil etmiş və "Rəngkarlıqda ənənələrin qorunub saxlanması" nominasiyası üzrə ən yüksək mükafata layiq görülmüşdür.

İyun ayının 26-da Azərbaycan Dövlət Filarmoniyasında görkəmli bəstəkar, Xalq Artisti, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Dövlət Uşaq Filarmoniyasının bədii rəhbəri Oktay Zülfüqarovun anadan olmasının 80 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 may 2009-cu il tarixli 277 nömrəli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Teatrı 2009-2019-cu illərdə» Dövlət Proqramının 2.13 bəndinin icrasını təmin etmək məqsədilə 2009-cu il iyun ayının 23-dən 28-dək Gəncə şəhərində "Yeni Teatr" Respublika Festivalı keçirilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlığa

dair 2009-2010-cu illər üzrə Proqramına uyğun olaraq 2009-cu il 29 iyun – 2 iyul tarixlərində Rusiya Federasiyasında, iyulun 2-dən 5-dək Tatarıstanda Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir.

43-cü Montrö Caz Festivalında «Şərq həzzi: Azərbaycan» adı altında keçirilən konsertlərdə Emil İbrahimin, Salman Qəmbərovun, Z.Bağırovun, Əzizə Mustafazadənin caz qrupları iştirak etmişlər.

Gənc pianoçu İsfar Rzayev-Sarabski nüfuzuna görə dünyada nömrə bir sayılan Montrö Caz müsabiqəsində ən yüksək mükafata və 1-ci yerə layiq görüldü. 11 ölkə arasında 1-ci yer qazanan Azərbaycan həmçinin festival tarixində bu mükafata layiq görülən ilk müsəlman ölkəsi oldu.

2009-cu ilin sentyabr ayında Almaniyanın Payne şəhərində görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazeh və Fridrix Bodenştetin xatirə lövhəsinin açılışı keçirilmişdir. Tədbirin açılışı münasibəti ilə Payne şəhərində Azərbaycan rəssamı Afət Axundzadənin əsərlərindən ibarət sərgi təşkil olunmuşdur.

2009-cu ilin iyul ayında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında teatr-tamaşa müəssisələrinin rəhbərləri ilə görüş keçirilmişdir. Görüş zamanı «Azərbaycan teatrı 2009-2019-cu illərdə» Dövlət proqramının icraçı ilə bağlı tövsiyələr verilmiş, Proqramın strateji məqsədi dəqiqləşdirilmişdir.

Azərbaycan Respublikasının «Yeni Filarmoniya» birləşmiş gənclər orkestri istedadlı dirijor Fuad İbrahimovun rəhbərliyi ilə 2009-cu il iyul ayının 30-dan avqust ayının 2-nə qədər İtaliyanın Toskana şəhərində keçirilən Beynəlxalq musiqi festivalında uğurla çıxış etmişdir.

2009-cu il 16-26 avqust tarixlərində Almaniyada keçirilmiş Morgenland Osnabrük Musiqi Festivalında Xalq Artisti Alim Qasımovun rəhbərliyi ilə musiqi qrupu iştirak etmişdir.

Cari ilin 3-9 sentyabr tarixində Bolqarıstanın Plovdiv şəhərində keçirilmiş «3-dən az, 2-dən çox» adlı Beynəlxalq Kukla Teatrları Festivalında Gəncə Dövlət Kukla Teatrının kollektivi Əli Səmədlinin «Artıq tamah baş yarar» tamaşası ilə çıxış etmişdir.

Ukraynanın Kiyev şəhərində və Belarusun Brest şəhərində keçirilmiş «Sayrışan ulduzlar» və «Belaya Veja» Beynəlxalq Teatr Festivallarında Bakı Kamera Teatrının kollektivi iştirak etmişdir.

2009-cu il sentyabrın 15-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının qarşısında artıq ənənəyə çevrilmiş 137-ci teatr mövsümünün açılış mərasimi ilə keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Üzeyir Musiqi Gününün keçirilməsi haqqında» 18 sentyabr 1995-ci il tarixli 385 nömrəli Fərmanına müvafiq olaraq, 2009-cu il 17-25 sentyabr tarixlərində Musiqi Günü Beynəlxalq Musiqi Həftəsi kimi qeyd olunmuşdur. Həftə çərçivəsində Azərbaycan Dövlət Filarmoniyasında tanınmış dirijorlar Enrike Batiz (Meksika), Maksim Vengerovun (İsrail) iştirakı ilə simfonik konsertlər, görkəmli Azərbaycan bəstəkarı Zülfüqar Hacıbəyovun 125 illiyinə, görkəmli tarzən Əhsən Dadaşovun 85 illiyinə, alim-musiqişünas Mir Möhsun Nəvvaba həsr olunmuş yubiley tədbirləri, müxtəlif sərgilər, muzeylərdə görüşlər keçirilmişdir. Azərbaycan Dövlət Musiqili Komediya Teatrında "Arşın mal alan"ın yeni quruluşda premyerası tamaşaçılara təqdim edilmişdir.

Ağcabədidə "Qarabağ" Muğam Mərkəzində Azərbaycan Dövlət "Muğam" Teatrı böyük konsert proqramı ilə çıxış etmişdir.

18 sentyabr tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında TÜRKSOY-un Beynəlxalq layihəsi – Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Tatarıstan və Başqordostan opera ifaçılarının iştirakı ilə Üzeyir Hacıbəylinin "Koroğlu" tamaşası göstərilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlığa dair 2009-2010-cu illər üzrə Proqrama uyğun olaraq cari il 23-24 sentyabr tarixində Azərbaycanda Rusiya Federasiyasının Mədəniyyət Günləri keçirilmişdir.

Cari il 24 sentyabr tarixində İsveçrənin Cenevrə şəhərində yerləşən BMT-nin "Millətlər sarayı"nda Əməkdar Artistlər Salman Qəmbərov və Rain Sultanovun konserti keçirilmişdir.

2009-cu il 28-30 sentyabr tarixlərində Lənkəranda görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının 110 illiyinə həsr olunmuş " Deyilən söz yadigardır" IV Respublika bədii qiraət müsabiqəsi keçirilmişdir.

Oktyabrın 1-də Azərbaycan Dövlət Filarmoniyasında Xalq Artisti, Prezident təqaüdçüsü, tarzən, "Lalə" qızlar ansamblının bədii rəhbəri Ceyran Haşımovanın 75 illik yubiley tədbiri keçirilmişdir.

2009-cu il oktyabr ayının 6-da Füzuli rayonunun Horadiz qəsəbəsində incəsənət xadimlərinin iştirakı ilə "Yaddan çıxmaz Qarabağ" adlı mədəni-siyasi aksiya keçirilmişdir.

Dahi Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" baletinin Misirdə səhnəyə qoyulması və əməkdaşlıq perspektivləri barədə müzakirələrin aparılması məqsədilə 2009-cu il 14-17 oktyabr tarixlərində Misir Ərəb Respublikasının Mədəniyyət Nazirliyinin Milli Mədəniyyət Mərkəzi və Qahirə Opera Evi üzrə Baş idarəsinin rəyasət heyətinin sədri, professor Abdul Monem Kamel Bakıda səfərdə olmuşdur.

2009-cu il 15-19 oktyabr tarixlərində Azərbaycanda Mərakeş Krallığının, 19-23 oktyabr tarixlərində isə İordaniya Haşimilər Krallığının Mədəniyyət Günləri keçirilmişdir.

18-20 oktyabr 2009-cu il tarixlərində İsveçrə Konfederasiyasının paytaxtı Bern şəhərində "Culturescapes 2009 - Azərbaycan" mədəniyyət günlərinin açılış mərasimində Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert təşkil olunmuşdur. Tədbirdə Azərbaycan və İsveçrə Respublikalarının Prezidentləri iştirak etmişlər.

Dekabrın 4-dək davam edən Mədəniyyət Günləri çərçivəsində İsveçrənin müxtəlif şəhərlərində 60-dan artıq tədbir keçirilmişdir. Alim Qasımovun, Sevda Ələkbərzadənin, Əzizə Mustafazadənin, İsfar Sarabskinin, Salman Qəmbərovun, Murad Adıgözəlzadənin, Gülşən Ənnağıyevanın, "Qarabağ bülbülləri" ansamblının konsertləri keçirilmiş, Dövlət Pantomima və Marionet teatrlarının tamaşaları böyük maraqla qarşılanmışdır.

22 oktyabr tarixində böyük Azərbaycan müğənnisi, SSRİ Xalq Artisti Müslüm Maqomayevin ölümünün bir illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

2009-cu il 21-27 oktyabr tarixində Bakıda Beynəlxalq Caz Festivalı keçirilmişdir. Rəngarəng və maraqlı konsertlərlə dünya şöhrətli musiqiçilər – Branford Marsalisin, Riçard Bonanın, "Jazzinho", "Zihan & Kamien" qruplarının çıxışı tamaşaçıların rəğbətini qazanmışdır.

30 oktyabr 2009-cu il tarixində Azərbaycan Dövlət Filarmoniyasında Xalq Artisti, Prezident təqaüdçüsü Çingiz Sadıxovun 80 illiyinə həsr olunmuş yubiley gecəsi təşkil edilmişdir.

2009-cu il 3-6 noyabr tarixlərində Türkmənistanda Azərbaycan Mədəniyyət günləri keçirilmişdir və ilk dəfə olaraq tədbirdə Naxçıvan MR Dövlət Filarmoniyasının kollektivləri və solistləri iştirak etmişlər.

2009-cu il 18-22 noyabr tarixlərində Avropa Azərbaycan Cəmiyyətinin (The European Azerbaijan Society) dəvətinə əsasən Londonda Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsertlər olunmuşdur.

Bu ilin noyabr ayından "Azərbaycan teatrı 2009-20019-cu illərdə" Dövlət Proqramına əsasən kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi məqsədilə "Yuğ" Teatrının iki gənc rejissoru təcrübə keçmək üçün altı ay müddətinə Türkiyə və Polşa respublikalarına, Günay Səttarova Ankara Dövlət Teatrına və Tural Mustafayev Krakov Milli Teatrına. ezam olunmuşlar

2009-cu il 8-14 dekabr tarixində Heydər Əliyev Fondu, Mstislav Rostropoviç Fondu və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakıda dünya şöhrətli musiqiçi adını daşıyan III Beynəlxalq Rostropoviç Festivalı keçirilmişdir. Festivalda Azərbaycan Dövlət Simfonik Orkestri, "Yeni Rusiya" simfonik orkestri, İngilis kamera orkestri, dünya şöhrətli dirijorlar Kristian Badea, Pol Uotkins, Yuri Başmet, Maksim Vengerov, Rauf Abdullayev tanınmış violonçel ifaçıları - David Qerinqas, Amanda Forsayt, Xavyer Filips, skripkaçılar Rey Çen, Pinxas Sukkerman, pianoçular Filipp Kopaçevski, Murad Adıgözəlzadə, vokalçılar Badri Maysuradze, Doina Dimitriu, Silvio Zanon, Elçin Əzizov, Samir Cəfərov iştirak etmişlər. Festival çərçivəsində Prezident təqaüdçülərinin, Uşaq-Gənclər

Simfonik orkestrinin konsertləri, habelə violonçel ifaçısı David Gerinqasın, müğənni Silvio Zanonun və dirijor Maksim Vengerovun ustad dərsləri təşkil edilmişdir.

«Bakı İslam mədəniyyətinin paytaxtı - 2009» tədbirləri çərçivəsində 2009-cu il 15-19 dekabr tarixlərində Azərbaycan Respublikasında Küveyt Mədəniyyət Günləri keçirilmişdir. Tədbir çərçivəsində Bədii -Sərgi Salonunda milli geyim, parça, xəttatlıq və xalq sənəti nümunələrinin sərgisi təşkil olunmuş, Azərbaycan Dövlət Filarmoniyasında, habelə Xırdalan və Suraxanı mədəniyyət evlərində Küveyt folklor kollektivinin konsertləri keçirilmişdir.

Cari ilin dekabr ayında İsveçrənin Dornax şəhərində Azərbaycan Mədəniyyət İlinin bağlanış mərasimi keçirilmişdir. Tamaşaçılara "Maska" və "Leyli və Məcnun" operasının yeni layihəsi təqdim edilmişdir.

«Azərbaycan teatrı 2009-2019-cu illərdə» Dövlət Proqramında nəzərdə tutulmuş islahatlar çərçivəsində Bakı Kamera Teatrı və Marionet Teatrı Mədəniyyət və Turizm Nazirliyinin tabeliyinə verilmiş, daha sonra Bakı Kamera Teatrı Dövlət Gənc Tamaşaçılar Teatrına birləşdirilmişdir,

2009-cu il 15-19 oktyabr tarixində Azərbaycanda Mərakeş Krallığının Mədəniyyət Günləri keçirilmiş və bu çərçivədə oktyabrın 16-da Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adına Sərgi Salonunda Mərakeş Krallığı rəssamlarının qrafika əsərləri nümayiş olunmuşdur.

2009-cu il oktyabr ayının 15-dən 22-dək Özbəkistanın Daşkənd şəhərində V Müasir Beynəlxalq İncəsənət Biennalesi keçirilmişdir. Biennaledə iştirak etmək üçün Əməkdar Rəssam Nazim Rəhmanov və sənətşünaslıq namizədi Dilarə Vahabova oktyabr ayının 12-dən 22-dək Özbəkistan Respublikasının Daşkənd şəhərinə ezam olunmuşdur.

I Ümumrespublika Dekorativ-Tətbiqi Sənət Festivalı çərçivəsində Muzey Mərkəzində, 3-6 noyabr 2009-cu il tarixində Bakı şəhəri üzrə növbəti regional sərgi keçirilmişdir. Sərgidə Bakı şəhərində yaşayan dekorativ sənət ustalarının əsərləri nümayiş olunmuşdur.

Ümumrespublika Dekorativ Tətbiqi Sənət Festivalının bağlanışına həsr olunmuş yekun sərgisi cari il dekabr ayının 22-dən 30-dək keçirilmişdir. Sərgidə Festivalın təşkilat komitəsi tərəfindən 2009-cu il ərzində 6 regional sərgidən seçilmiş yüzlərlə dekorativ-tətbiqi sənət nümunələri nümayiş etdirilmişdir.

İsveçrədə Azərbaycan Mədəniyyət ili "Azerbaijan culturesdcapes 2009" layihəsi çərçivəsində 2009-cu il noyabr ayının 10-dan 29-dək İsveçrə Konfederasiyasının Bazel şəhərində "Bakı Unlimited" adlı sərgi keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Bəstəkarlar İttifaqının 75 illik yubileyinin keçirilməsi haqqında» 18 may 2009 -cu il il tarixli 276 nömrəli Sərəncamına əsasən 12-17 noyabr 2009-cu il tarixlərində Bakıda Azərbaycan Bəstəkarlar İttifaqının 75 illiyi münasibətilə Musiqi Festivalı keçirilmişdir.

2009-cu il dekabr ayının 11-dən 18-dək Bakıda "Alüminium" IV Beynəlxalq Müasir İncəsənət Biennalesi keçirilmişdir. Biennaledə 20 xarici ölkədən 60-dək tanınmış rəssam, sənətşünas və kurator iştirak etmişdir. Biennaledə Azərbaycanı 35 nəfər yerli rəssam təmsil etmişdir.

## MƏDƏNİYYƏT SİYASƏTİ

2009-cu il ərzində respublikanın kitabxana, muzey, klub müəssisələri, digər mədəniyyət ocaqlarının fəaliyyətinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmiş, Azərbaycan xalqının qeyri-maddi irsinin, milli kulinariyanın inkişafı və təbliği ilə bağlı bir sıra tədbirlər həyata keçirilmiş, bu sahələrin fəaliyyəti əlaqələndirilmiş, müvafiq normativ hüquqi sənədlərin layihələrini hazırlamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın icrası ilə əlaqədar kitabxana-informasiya şəbəkəsinin informasiyalaşdırılması, kitabxanalarda Elektron kataloq və Elektron kitabxanaların yaradılması, kitabxanaların Veb-saytlarının təşkili və İnternetdə yerləşdirilməsi istiqamətində bir sıra işlər həyata keçirilmişdir. Belə ki, Gözdən Əlillər üçün Respublika Kitabxanası, M.Seyidzadə adına Mərkəzi şəhər Uşaq

Kitabxanası, Sumqayıt, Gəncə şəhər, Hacıqabul, Quba, Ağdaş, Neftçala, Şamaxı, Füzuli rayon mərkəzi kitabxanalarının Veb -saytları yaradılmışdır, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının Veb -saytı modernləşdirilmiş və oxucuların istifadəsinə verilmişdir. Sözügedən kitabxanalarda Elektron kataloq və Elektron kitabxanaların yaradılması işinə başlanmışdır. Sumqayıt şəhər, Sabirabad, Ağdaş, Masallı, Neftçala rayon mərkəzi kitabxanaları üçün Avtomatlaşdırılmış Kitabxana – İnformasiya Sisteminin yaradılmasına təşkilati köməklik göstərilmişdir.

«Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008 -2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nı, habelə əhalinin hüquqi informasiyaya olan tələbatını ödəmək məqsədi ilə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının nəzdində yaradılan İctimai Hüquqi - İnformasiya Mərkəzinin işi təkmilləşdirilmiş, çoxlu sayda hüquqi ədəbiyyat alınmış, Mərkəz haqqında təqvim buraxılmış, respublikanın bir sıra şəhər, rayon kitabxanalarında hüquqi – informasiya, uşaq hüququ informasiya mərkəzlərinin yaradılması işi həyata keçirilmişdir.

Dövlət Proqramının icrası məqsədi ilə Azərbaycanın kitabxana - informasiya şəbəkəsinin yeni dislokasiya xəritəsinin tərtibinə dair pilot layihə hazırlanmış və ilk dəfə olaraq Qəbələ rayonunda kitabxana - informasiya şəbəkəsinin yeni dislokasiya xəritəsinin hazırlanması və kitabxana filiallarının birləşdirilməsinə dair pilot layihə həyata keçirilməyə başlanmışdır. Bundan başqa, Dövlət Proqramının icrası ilə əlaqədar Bakı şəhərində və respublikanın digər şəhər və rayonlarında fəaliyyət göstərən və telefon xətti olmayan kitabxanaların telefon xətti ilə təchiz edilməsi məqsədilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə müraciət olunmuşdur.

Respublikanın mədəniyyət, təhsil, elm, dini və s. müəssisələrində, habelə şəxsi kolleksiyalarda saxlanılan nadir və unikal kitabların aşkar edilməsi işinə başlanmış və sözügedən kitabların təbliği, gələcək nəsillərə çatdırılması məqsədi ilə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" və "Bakı – İslam mədəniyyətinin paytaxtı – 2009" Tədbirlər planı çərçivəsində "Azərbaycanın kitab abidələri" DVD-nin buraxılması üçün təşkilatı işlər aparılmışdır. Bu məqsədlə unikal və nadir kitablar haqqında məlumatlar toplanmış,

sistemləşdirilmiş və hazırda "Azərbaycanın kitab abidələri" elektron nəşrinin hazırlanması işi həyata keçirilir.

Azərbaycan Milli Elmlər Akademiyası birgə "Bakı-İslam mədəniyyətinin paytaxtı – 2009" tədbirlər çərçivəsində M.F.Axundov adına Milli Kitabxanada "Asiyada İslam Tibbi əlyazmalarının vəziyyəti" üzrə regional seminar keçirilmişdir. Seminarda İSESKO təşkilatından, Misir, Tunis, Səudiyyə Ərəbistanı, Liviya, Bəhreyn, Suriya, İran, habelə AMEA-nın Əlyazmalar İnstitutunun və respublikanın əlyazmalar üzrə digər aparıcı təşkilatlarının mütəxəssisləri iştirak etmişlər.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008 -2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Milli Kitabxanada və respublikanın digər böyük kitabxanalarında cəmi bir nüsxə qalmış, oxucu tələbatı olan, habelə vəziyyəti son dərəcədə qeyri-qənaətbəxş olan kitablar müəyyən edilmiş və sözügedən kitabların Nazirliyin vəsaiti hesabına nəşr olunması ilə əlaqədar təşkilatı işlər aparılmışdır.

Dövlət Proqramının icrası məqsədi ilə Bakı şəhərinin 9 rayonunda fəaliyyət göstərən kütləvi, uşaq, gənclər kitabxanalarının əsasında mərkəzləşdirilmiş kitabxana sisteminin yaradılması işinə başlanmışdır.

Azərbaycanın dünyanın bir sıra ölkələrində təbliği, tanıdılması və İslam Konfransı Təşkilatı dövlətlərinin kitabxanaları ilə informasiya mübadiləsinin həyata keçirilməsi işi sahəsində də müəyyən işlər həyata keçirilmişdir. Bu məqsədlə Azərbaycanın xarici ölkələrdəki səfirliklərinə və mədəniyyət mərkəzlərinə, habelə Qətər, Suriya, İndoneziya, Türkiyə, Rusiya, Tacikistan, Özbəkistan, İran, Cənubi Koreya, Gürcüstan, Qırğızıstan, Ukrayna, Belarus, Avstriya, Macarıstan, Qazaxıstan, Moldova, Belçika və s. dövlətlərin aparıcı kitabxanaları na Azərbaycanın zəngin tarixi, mədəniyyəti, adət - ənənələri, incəsənəti, ədəbiyyatı haqqında kitab, jurnal, elektron nəşr və filmlər göndərilmişdir. Nazirliyin təklifi ilə bir sıra xarici ölkələrin milli kitabxanalarında "Azərbaycan guşələri" yaradılmışdır.

Azərbaycanın dahi şairi Nizami Gəncəvi irsinin daha geniş təbliği məqsədi ilə şairin əsər və əlyazmalarının kataloqu hazırlanmış və Qətər dövlətinin Milli Kitabxanasına göndərilmişdir.

Qətər Milli Kitabxanası və M.F.Axundov adına Milli Kitabxana arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumunun layihəsi hazırlanmış və Xarici İşlər Nazirliyinə göndərilmiş, Azərbaycan-İtaliya, Azərbaycan -Polşa milli kitabxanaları arasında əməkdaşlıq əlaqələrinin qurulması və Azərbaycan nəşrlərinin sözügedən ölkələrdə təbliğinə dair işlər aparılmışdır.

"Bakı İslam Mədəniyyətinin paytaxtı" tədbirlər çərçivəsində I Bakı Beynəlxalq kitab sərgi -yarmarkası keçirilmişdir. Sərgi -yarmarkada 20-dən çox xarici ölkənin nəşriyyat və poliqrafiya müəssisələrinin nəşrləri, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə çap olunmuş kitablar, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fondunda saxlanılan kitablar nümayiş etdirilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin layihəsi ilə "Prezident İlham Əliyev və mədəniyyət (2003-2008)" iki cildlik kitabın elektron versiyası hazırlanmışdır. Elektron kitabda Prezident İlham Əliyevin Azərbaycan və dünya mədəniyyət xadimləri ilə görüşləri, müxtəlif mədəniyyət müəssisələrində olan zaman çıxış və tövsiyələri, müsahibələri, mədəniyyət xadimlərinə göndərdiyi təbriklər, mədəniyyət sahəsində imzaladığı fərman, sərəncam, qanunlar və s. öz əksini tapmışdır.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın mədəniyyət sahəsində gördüyü işləri əks etdirən «Культура и культурные шедевры Азербайджана - уникальное послание будущим поколениям» kitabının nəşri ilə əlaqədar işlər aparılmış, kitabın materialları və şəkilləri seçilmiş, sistemləşdirilmiş, tərcümə edilmiş və kitab çapdan çıxmış, M.F.Axundov adına Milli Kitabxanada geniş təqdimatı keçirilmişdir. Kitabın elektron versiyası hazırlanmışdır. Hazırda sözügedən kitabın ingilis dilində nəşr edilməsi məqsədilə müvafiq işlər həyata keçirilmiş və çapa hazırlanmaqdadır. Sözügedən kitabın ərəb dilində nəşr edilməsi təklif olunmuşdur.

"Bakı – İslam mədəniyyətinin paytaxtı – 2009" Tədbirlər planı çərçivəsində M.Seyidzadə adına Mərkəzi şəhər Uşaq Kitabxanasının nəzdində respublikada ilk "Uşaq İnformasiya Mərkəzi – Kitab mağazası" açılmışdır.

Regionlarda kitabxanaların modernləşdirilməsi, onların fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili məqsədi ilə Balakən rayon, Yevlax şəhər Mərkəzi Kitabxanaları inşa edilmiş, habelə Şəki, Sumqayıt şəhər Mərkəzi Kitabxanaları modernləşdirilmiş, müasir inventar və avadanlıqlarla təchiz edilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə M.F.Axundov adına Milli Kitabxana ilə birlikdə "Bakı-İslam Mədəniyyətinin paytaxtı - 2009" tədbirlər çərçivəsində İslam ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatına (EKO) üzv ölkələrin Milli Kitabxanalarının direktorları Şurasının II Konfransı keçirilmişdir. Konfrans çərçivəsində "İslam mədəniyyəti kitab səhifələrində" beynəlxalq kitab sərgisi keçirilmiş və sərgi ilə əlaqədar Azərbaycana gətirilmiş kitablar M.F.Axundov adına Milli Kitabxanaya hədiyyə edilmişdir. Konfransda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının vahid portalının yaradılması, türk xalqının görkəmli şəxsiyyətlərinin yubileylərinin islam dünyasında qeyd olunması barədə razılıq əldə olunmuşdur.

M.F.Axundov adına Milli Kitabxanada IX Bakı Kitab Bayramı Milli Kulturoloji Layihənin əsas mərasimi – sərgi, ədəbi-mədəni ictimaiyyətin görüşü və mükafatlandırma mərasimi keçirilmişdir. Kitab Bayramı "Bakı - İslam Mədəniyyəti Paytaxtı - 2009", Azərbaycan Xalq Cümhuriyyətinin 91, Azərbaycan Yazıçılar Birliyinin 75 kimi əlamətdar hadisələrə həsr olunmuşdur. Kitab Bayramı – Milli Kulturoloji Mükafat Komissiyası üzvlərinin son toplantısında müsabiqəyə təqdim olunmuş çoxsaylı (300-dən artıq) ədəbi-mədəni və kitab-nəşr layihələrinin sırasında 25 iş uğurlu sayılmış, qaliblərin mükafatlandırılması qərara alınmışdır. Eyni zamanda kitab nəşri və yayımı ilə bağlı bir sıra uğurlu işlər görmüş nəşriyyat, qurum, televiziya verilişləri mükafatlandırılmışdır.

2009-cu ilin "Uşaq ili" elan olunması ilə əlaqədar Nazirliyin təşkilati dəstəyi ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası "SOS" Uşaq Kəndində "I Milli Uşaq Kitabı Sərgisi" keçirmişdir. "I Milli Uşaq Kitabı Sərgisi"ndə respublikanın tanınmış nəşriyyatlarının çap etdikləri yeni uşaq nəşrləri nümayiş etdirilmiş və tədbirin sonunda sözügedən nəşrlər "SOS" Uşaq Kəndinin ərazisində yerləşən 14 evin kitabxanasına hədiyyə edilmişdir. Bundan başqa, uşaq və yeniyetmələr arasında

kitabın, elmin, mütaliənin təbliği məqsədi ilə Nazirliyin dəstəyi ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası Bakı Fəvvarələr meydanında "II Ümumrespublika Uşaq Kitabı Festivalı" keçirmişdir. Tədbirdə respublikada uşaq kitabları nəşr edən nəşriyyatlar yeni nəşr etdikləri kitabların sərgisini və satışını təşkil etmiş, maraqlı viktorinalar, rəsm, şeir və nəğmə müsabiqələri iştirakçıların böyük marağına səbəb olmuşdur.

Respublika cəzaçəkmə müəssisələrinin, habelə silahlı qüvvələrin hərbi hissələrinin və zastavaların kitabxana fondlarını latın qrafikalı ədəbiyyatla zənginləşdirmək məqsədi ilə həmin müəssisələrə çoxlu sayda kitablar göndərilmişdir.

M.F. Axundov adına Milli Kitabxana tərəfindən "Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri", "Heydər Əliyev Fondu", "Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunan kitabların biblioqrafik təsviri (II hissə)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" metodik vəsaitləri nəşr olunaraq istifadəçilərə təqdim edilmişdir.

2009-cu il ərzində muzey fondlarının uçotu, mühafizəsi, komplektləşdirilməsi, ekspozisiyalarının təkmilləşdirilməsi və yenidən qurulması, səyyar sərgilərin təşkili, muzeylərin maddi-texniki bazalarının möhkəmləndirilməsi, onlara əməli və metodiki kömək göstərilməsi istiqamətində məqsədyönlü iş aparılmış, muzeylər tərəfindən təqdim edilmiş hesabatlar təhlil edilmiş, bir sıra respublika səviyyəli tədbirlər keçirilmişdir.

Azərbaycan İstiqlal Muzeyində 20 Yanvar faciəsinə həsr edilmiş rəssam-fotoqraf T.Cəfərovun "Tarix olduğu kimi" adlı fotosərgi, 31 Mart soyqırımı hadisələrinə, 18 may Beynəlxalq muzeylər gününə, 28 may Respublika Gününə həsr edilmiş tədbirlər təşkil olunmuşdur. Bədii Sərgi Salonunda Xocalı soyqırımına həsr edilmiş sərgidə Azərbaycan Dövlət İncəsənət Muzeyinin eksponatlarından istifadə edilmişdir.

28 yanvar 2009-cu il tarixində Ağstafa rayonunda Heydər Əliyev muzey və mərkəzlərinin işinin təşkili və fəaliyyətlərinin təkmilləşdirilməsi məsələlərinə həsr olunmuş respublika seminar müşavirəsi keçirilmişdir. Tədbir çərçivəsində Ağstafa rayon Heydər Əliyev Mərkəzində müasir rəssamların rəsm əsərlərindən ibarət «Şərqdən Şərqə» adlı sərgi təşkil edilmişdir.

Uşaqların beynəlxalq müdafiə günündə Azərbaycan Dövlət İncəsənət Muzeyində uşaqlar üçün xüsusi layihə hazırlanmış və «Daun sindromlu insanların assosiasiyası» ilə birlikdə «Muzey istinasız hər kəs üçün» adlı layihə həyata keçirilmişdir.

Milli bayramımız olan Novruz Bayramı tədbirləri çərçivəsində keçirilən sərgilərdə Bakı şəhər muzeylərinin eksponatlarından və şəxsi kolleksiyalardan olan əşyalardan istifadə edilmişdir.

5 iyun – Ümumdünya Ətraf Mühiti Müdafiə Günü – Azərbaycan Dövlət İncəsənət Muzeyində «Ana təbiət uşaqların gözü ilə» mövzusunda uşaq rəsm sərgisi təşkil olunmuşdur. Sərgidə müxtəlif yaşlı uşaqların 60-dan artıq rəsm əsəri nümayiş olunmuşdur.

Azərbaycan İstiqlal Muzeyində 28 may Respublika Gününə həsr edilmiş «Biz müstəqilliyimizin varisiyik» adlı sərgi təşkil olunmuşdur. Sərgidə T.İsmayılov adına Uşaq dünyası qalereyasından rəsm əsərləri nümayiş etdirilmişdir.

Bakı şəhərinin 2009-cu ildə İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi, habelə «İslam və mədəniyyət» mövzusunda elmi konfransın keçirilməsini təmin etmək məqsədilə 15 may 2009-cu il tarixində Azərbaycan Dövlət Teatr Muzeyində «İslam və mədəniyyət» mövzusunda elmi konfrans keçirilmişdir.

Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyinin müraciətinə, Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmrinə əsasən 16 may 2009-cu il tarixində respublika muzeylərində ənənəvi olaraq «Muzeylər gecəsi» aksiyası, «Muzeylər və turizm», «Tariximizə və mədəniyyətimizə səyahət» mövzularında silsilə tədbirlər həyata keçirilmişdir.

13 iyul 2009-cu il tarixində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində Lətif Kərimov adına Xalçaçılığın İnkişafı Fondu İctimai Birliyi ilə birlikdə «Ustad xəyalı: Qədim çeşnilərin yeni həyatı» mövzusunda sərgi keçirilmişdir.

7 sentyabr 2009-cu il tarixində Azərbaycan Xalçası və Xalq Tətbiqi Muzeyində Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycan Milli Komitəsi tərəfindən «Muzey marketinqi» mövzusunda işgüzar görüş keçirilmiş, görüşdə Filadelfiya İncəsənət

Muzeyinin İctimaiyyətlə əlaqələr və marketinq üzrə mütəxəssisi, müstəqil ekspert Çarlz Kroçi (ABŞ) mövzu ilə bağlı çıxış etmişdir.

13-22 sentyabr 2009-cu il tarixlərində Muzey Mərkəzində Əsrin müqaviləsinin 15-ci ildönümü və Nobel qardaşlarının Azərbaycanda fəaliyyətinin 130 illiyi ilə əlaqədar «Nobellər və Bakı Nefti» adlı foto-sənədli, bədii və rəqəmsal sərginin təqdimatı keçirilmişdir.

15 sentyabr 2009-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Azərbaycan Dövlət İncəsənət Muzeyinin rekonstruksiya və əsaslı təmirdən çıxmış binasında yeni ekspozisiyanın açılış mərasimi keçirilmişdir.

16 sentyabr 2009-cu il tarixində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi, Şərqi və Mərkəzi Avropada İncəsənət və mədəniyyət üzrə Fondunun təşəbbüsü, ACİ-nun Yardım Fondunun dəstəyi ilə muzeylərdəki tekstil kolleksiyalarının bərpası mövzusunda «Xilas olunmuş gözəlliklər» adlı təlim-seminar keçirilmişdir.

9-11 oktyabr 2009-cu il tarixlərində Muzey Mərkəzində Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının yaranmasının onuncu ildönümünə həsr olunmuş foto sərgi keçirilmişdir.

5 noyabr 2009-cu il tarixində Azərbaycan Dövlət İncəsənət Muzeyində 2009-cu il Bakı şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar təsdiq edilmiş tədbirlər planına əsasən Böyük Britaniyanın Viktoriya və Albert Muzeyinin kolleksiyasından «Mərkəzi Asiya örtükləri» adlı sərginin açılış mərasimi keçirilmişdir. Sərgi 3 mart 2010-cu il tarixinədək nümayiş etdiriləcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 292 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı»nın icrasını təmin etmək məqsədilə 23 iyun 2009-cu il tarixində Muzey Mərkəzində muzey işçilərinin respublika müşavirəsi keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Etnoqrafiya Muzeyinin yaradılması haqqında» 11 iyul 2008-ci il tarixli 2941 nömrəli və Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2009-cu il tarixli 10s nömrəli Sərəncamlarına uyğun olaraq Azərbaycan Etnoqrafiya Muzeyi üçün Abşeron rayonunun inzibati ərazisində 200,0 hektar sahə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin daimi istifadəsinə verilmişdir. Hazırda Azərbaycan Etnoqrafiya Muzeyi üçün ayrılmış torpaq üzərində hüquqları Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydə alınmış, Azərbaycan Milli Elmlər Akademiyasının təklifləri nəzərə alınmaqla açıq səma altında Azərbaycan Etnoqrafiya Muzeyinin yaradılması üzrə təkliflərin həyata keçirilməsinə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən razılıq verilmiş, muzeyin baş planının hazırlanması üzrə Beynəlxalq müsabiqə elan edilmişdir.

Gürcüstanın Tbilisi şəhərində yerləşən M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin yerləşdiyi bina Gürcüstan Prezidentinin 2009-cu il 13 may tarixli sərəncamı ilə Azərbaycan Dövlət Neft Şirkətinin Gürcüstandakı Nümayəndəliyinin balansına verilmiş və hazırda orada əsaslı təmir, rekonstruksiya, bədii tərtibat işlərinin aparılması üçün layihə-smeta sənədləri hazırlanır.

N.Nərimanovun Tbilisi şəhərindəki Ev-Muzeyinin binasının bərpası ilə bağlı Mədəniyyət və Turizm Nazirliyi və Gürcüstanın müvafiq dövlət orqanları arasında 2008-ci ilin dekabr ayında imzalanmış müqaviləyə əsasən orada tikinti işləri aparılır.

Almaniyada Azərbaycan İli çərçivəsində Berlinin və Drezdenin Etnologiya Muzeylərində 2008-2009-cu illərdə «Azərbaycan – Odlar Yurdu» sərgisi təşkil edilmiş və 2009-cu ilin mart ayında Drezdendə sərkinin təntənəli bağlanış mərasimi keçirilmişdir.

Dünya ölkələrində Azərbaycana aid guşələrin yaradılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycanın səfirlikləri vasitəsilə Türkiyə Respublikası Hacettepe Universitetinin Türkoloji Araşdırmalar İnstitutuna, Qazaxıstanın Ş.Yesenov adına Kaspi Dövlət Texnologiya və Mühəndislik Universitetinə muzeylərlə bağlı müxtəlif çap məhsulları göndərilmişdir. Azərbaycan musiqi mədəniyyətinin təbliği məqsədilə Tbilisi şəhərində fəaliyyət göstərən M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinə 3 ədəd musiqi aləti (tar, kamança, qaval) alınaraq göndərilmişdir.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi tərəfindən Qax Tarix-Diyarşünaslıq Muzeyinin 32, Şirvan Tarix-Diyarşünaslıq Muzeyinin 4, Qusar Tarix-Diyarşünaslıq Muzeyinin 10, Masallı Tarix-Diyarşünaslıq Muzeyinin 5, Xalça Muzeyinin 10, Səttar Bəhlulzadənin ev-muzeyinin 18, L. və M.Rostropoviçlərin ev-muzeyini 2, M.S.Ordubadinin xatirə muzeyinin 9 eksponatı bərpa və konservasiya edilmişdir.

Nazirliyin mərkəzləşdirilmiş vəsaiti hesabına Sumqayıt şəhərinin, Qusar, Balakən, Xızı rayon Tarix-Diyarşünaslıq Muzeylərində bədii tərtibat işləri aparılmış, Dəvəçi rayon mədəniyyət evinin foyesinin, Salyan rayon Heydər Əliyev muzeyinin bədii tərtibatı işlərini həyata keçirilmişdir.

Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin fondunu zənginləşdirmək məqsədilə Lətif Kərimov adına Xalçaçılığın İnkişafı Fondu İctimai Birliyi tərəfindən toxunulmuş «Xəritə» xalçası, xalçaçı-rəssam Lətifə Qarayeva tərəfindən toxunmuş «Namazlıq» xalçası, vətəndaş Ziyəddin Göyüşov tərəfindən təqdim edilmiş, XIX əsrin sonu XX əsrin əvvəllərində toxunulan Təbriz qrupuna aid «Şah Abbas» xovlu xalçası, Kübra Əliyevanın layihəsi əsasında Yan Van Eykin «Madonna kanonika van der Pale» rəsm əsərində təsvir olunan Quba qrupuna aid «Zeyvə» xalçası və Rəşid Qasım oğlu Məmmədov tərəfindən təqdim edilmiş 17 ədəd zərgərlik nümunələri alınmışdır.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin fondunu zənginləşdirmək məqsədilə bəstəkar Xəyyam Mirzəzadənin şəxsi arxivi, vətəndaş M.Zeynalova tərəfindən təqdim edilmiş 5 ədəd nəfəsli musiqi aləti, Ülviyyə Hacıbəyova tərəfindən təqdim edilmiş xalq rəssamı Salam Salamzadənin müəllifi olduğu «İsmayıl Hacıbəyov» adlı rəsm əsəri alınmışdır.

Azərbaycan Dövlət İncəsənət Muzeyinin fondunu XX əsr rəssamlarının əsərləri ilə zənginləşdirmək məqsədilə vətəndaş İlqar Hüseynov tərəfindən təqdim edilmiş rəssam Ucal Haqverdiyevin müəllifi olduğu «Qadın portreti» rəsm əsəri alınmışdır. Azərbaycan Dövlət İncəsənət Muzeyinin yeni binasının açılışı ilə əlaqədar ekspozisiyada nümayiş etdirilən rəsm əsərləri çərçivələnmişdir.

Novruz bayramı ərəfəsində İçərişəhər Dövlət Tarix -Memarlıq Qoruğunun ərazisində 2009-cu il 19-22 mart tarixlərində Azərbaycan xalq tətbiqi sənət ustalarının və sənətkarlarının məmulatlarının satış-sərgisi keçirilmişdir. Meydan boyu 50 nəfər usta və sənətkar üçün xüsusi masalar qurulmuş, onların fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Satış-sərgidə taxta oyma, keramika, kuklalar, tablolar, ilmə, kağızdan suvenirlər, xalçalar, qurama, qobelen, musiqi alətləri, milli paltarlar, naxış tikmə, toxuma, dulusçuluq, dəmir işləri, şəbəkə və sair növlər nümayiş olunmuşdur. Hər bir sənətkar öz əl işlərini və bu nümunələrin hazırlanması prosesini tamaşaçılara təqdim etmişdir.

"Azərbaycanda müasir mədəniyyət mərkəzlərinin yaradılması"na dair Pilot layihə ilə əlaqədar İngiltərəli ekspert C.Fletçer Gəncə, Lənkəran, Abşeron, Zaqatala və Xaçmazda mərkəzlərin yaradılması nəzərdə tutulan ərazilərdə olmuş, müvafiq təkliflərini hazırlamışdır.

21-25 mart 2009-cu il tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilən Beynəlxalq Kulinariya Festivalında 13 nəfərdən ibarət Azərbaycan Milli Kulinariya Komandası iştirak etmişdir.

25 aprel 2009-cu il tarixində Simurq Assosiasiyası ilə birlikdə Azərbaycan Mətbəxi ilə bağlı seminar təşkil edilmişdir.

10-19 may 2009-cu il tarixlərində Yunanıstanın Krit adasında keçirilən "Həyatın dadı" Beynəlxalq Kulinariya Festivalında Azərbaycanı 5 nəfər ibarət komanda təmsil etmişdir.

2009-cu il 18-20 may tarixlərində YUNESKO -nun Baş Qərargahında təşkil olunmuş "Mədəni müxtəliflik 2009" Beynəlxalq Festivalı çərçivəsində keçirilən "Müxtəliflik Bayramı" konsert tamaşasında aşıqlar – Samirə Əliyeva, Nemət Qasımov, Ramin Qarayev, Altay Məmmədov və balabançı Şirzad Fətəliyev iştirak etmişlər.

21-23 may 2009-cu il tarixlərində Serbiyanın Belqrad şəhərində keçirilən Dünya Kulinariya kuboku uğrunda çempionatda Azərbaycan 4 nəfərlik heyətlə çıxış etmişdir.

27 iyun 2009-cu il tarixində Şəki şəhərində Şəki şəhər İcra Hakimiyyəti ilə birlikdə Azərbaycan Milli mətbəx günü keçirilmişdir. Tədbirdə Azərbaycanda akkreditə olunmuş səfirliklərin nümayəndələri də iştirak etmişlər.

İ.Əbilov adına Mədəniyyət Mərkəzinin "Oğuzlar" folklor xalq ansamblının üzvləri 2009-cu il 8-12 iyul tarixlərində Türkiyənin Yozqat şəhərində təşkil olunmuş "II Beynəlxalq Sürməli Festivalı"nda çıxış etmişlər.

12 sentyabr 2009-cu il tarixində Muzey Mərkəzində "Vətəndaşların Avropa şəhərlərində yerli mədəniyyətin inkişafı siyasətində iştirakına dair soraq kitabçası"nın Azərbaycan dilindəki nəşrinin təqdimatı keçirilmişdir.

Türkiyənin "REM Fuar Organizasyon Ltd. Şti." şirkətinin təşkilatçılığı ilə 2009-ci il 25 sentyabr – 4 oktyabr tarixlərində Ankara şəhərində keçirilən "Avrasiya" xalq tətbiqi sənəti sərgisində Azərbaycanı xalça ustası Pərvin Kazımov, şəbəkə ustası Tofiq Rəsulov və misgər Şaiq Süleymanov təmsil etmişlər.

5-10 oktyabr 2009-cu il tarixlərində Bakıda İslam ölkələrinin Beynəlxalq Mətbəx Festival-Çempionatı keçirilmişdir. Çempionatda Ümumdünya Kulinariya Təşkilatları Assosiasiyasının prezidenti Qissur Qudmundsson, Dünya Xalq Yaradıcılığı Birliyinin prezidenti Karmen Padilya iştirak etmişdir.

3 noyabr 2009-cu il tarixində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramı təsdiq edilmişdir. Proqrama əsasən "Azərbaycanın Sənətkarlıq Paytaxtı", "Azərbaycanın Əfsanələr Paytaxtı", "Azərbaycanın Folklor Paytaxtı" elan olunmuş şəhərlərdə müvafiq olaraq rəsmi mərasimlər, milli və beynəlxalq səviyyəli elmi -praktiki konfranslar, dəyirmi masalar, konsertlər, müsabiqələr, festivallar, milli oyunlar, sərgilər, yarmarkalar, info-turlar və sair tədbirlər təşkili ediləcəkdir.

"Azərbaycanın qeyri-maddi mədəni irs subyektlərinin informasiya bankının yaradılması istiqamətində müvafiq təşkilati işlər görülmüşdür. İnformasiya bankında Qeyri-maddi mədəni irs sahəsində fəaliyyət göstərən subyektlər – Azərbaycan xalq tətbiqi (təsviri, dekorativ) sənət ustaları, folklor (xalq musiqisi, teatrı, şifahi yaradıcılığı) ifaçıları və kollektivləri, folklor, sənətkarlıq, diyarşünaslıq üzrə tədqiqatçılar, qeyri-maddi mədəni irs sahəsində fəaliyyət göstərən qeyri -hökumət

təşkilatları və özəl qurumlar haqqında dolğun, ətraflı məlumatları və yaradıcı nailiyyətləri özündə əks etdirən xüsusi portfoliolar yaradılacaqdır.

5-9 noyabr 2009-cu il tarixlərində Moldovada keçirilən Kulinariya Festivalında Azərbaycan 4 nəfərlik heyətlə iştirak etmişdir.

7-12 noyabr 2009-cu il tarixlərində Heydər Əliyev Fondunun və Azərbaycanın Belçikadakı Səfirliyin təşkilatçılığı ilə Brüsseldə fəaliyyət göstərən Avropa Parlamentində Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir. Tədbir çərçivəsində AMKM-nin 10 nəfər aşpazı 1200 nəfərdən artıq Parlament üzvünə 50 -dən artıq Azərbaycan yeməyi təqdim etmişdir.

27 noyabr – 4 dekabr 2009-cu il tarixlərində Rusiya Federasiyasının Rostov şəhərində Azərbaycan mətbəx mədəniyyətinin təbliğatı ilə bağlı aksiya keçirilmişdir.

"Bakı İslam Mədəniyyətinin Paytaxtı – 2009" ili çərçivəsində cari ilin 14 -16 dekabr tarixində Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycanın görkəmli şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş II Beynəlxalq Nəsimi Elmi Konfransı keçirilmişdir.

Konfransda Azərbaycan Respublikası mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, AMEA-nın prezidenti Mahmud Kərimov, şeyxülislam Hacı Allahşükür Paşazadə, Hələb vilayəti qubernatorunun mədəniyyət məsələləri üzrə müavini Məhəmməd Qacca, Hələb vilayətinin müftisi doktor Mahmud Ökkəm, Suriya və İranın görkəmli alimləri iştirak etmişlər. Konfransda Azərbaycanın görkəmli alimlərinin çıxışları dinlənilmişdir.

Konfrans çərçivəsində Hələb şəhərində yerləşən İmadəddin Nəsiminin türbəsində yenidənqurma və genişləndirmə işlərinin aparılması istiqamətində əməkdaşlıq məsələləri müzakirə edilmişdir. 600 il ərzində qorunub saxlanılmış böyük şairin qəbrinin hər iki xalq üçün əziz olduğu və bu birləşdirici amilin xalqlarımız və dövlətlərimiz arasında münasibətlərin daha da gücləndirilməsinə təkan verə biləcəyi nəzərə alınaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən İmadəddin Nəsiminin türbəsinin bərpası, yenidən qurulması, orada Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması barədə təkliflər hazırlanmışdır.

2009-cu il dekabr ayının 20-də Şəki rayonunun Daşüz kəndində yerləşən Respublika Atçılıq Turizm Mərkəzində Prezident Kuboku uğrunda Çövkən milli oyunu üzrə yarışlara start verilmişdir. Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı və Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən yarışlarda Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Yevlax, Ağdam, Goranboy, Ağcabədi və Ağstafa rayonlarını təmsil edən 12 komanda mübarizə aparmışdır.

Şəki komandası növbəti dəfə Prezident Kuboku uğrunda Çövkən milli oyununun qalibi adını qazanmışdır. Ağstafa və Balakən komandaları müvafiq olaraq 3 və 4-cü yerləri tutmuşlar. Sür papaq oyunu üzrə yarışlar isə Oğuz komandasının qələbəsi ilə başa çatmışdır. Papaq oyunu üzrə yarışlarda 1-ci yerin sahibi İsmayıllı komandası olmuşdur.

## MƏDƏNİ İRS

«Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarix -memarlıq abidələrinin bərpası və qorunması haqqında» Azərbaycan Respublikası Prezidentinin 18 avqust 2006-cı il tarixli 1633 №-li Sərəncamının 2.2 bəndinə əsasən Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsünə yenidən baxılmışdır. Siyahının dəqiqləşdirilməsi ilə əlaqədar daxil olan sənədlər təhlil edilmiş və siyahının son variantı Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Birinci Dünya Müharibəsi illərində Çanaqqala şəhəri uğrunda gedən döyüşdə həlak olmuş azərbaycanlıların xatirəsini əbədiləşdirmək məqsədi ilə abidə ucaldılması barədə sənədlər hazırlanıb Nazirlər Kabinetinə təqdim edilmişdir.

Daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizəsini təmin etmək məqsədi ilə abidə mülkiyyətçiləri və istifadəçiləri ilə sənədlərin ilkin hazırlıq mərhələsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə mühafizə müqavilələrinin bağlanılmasını təmin edilməsi xahişi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə

Dövlət Komitəsinə və Bakı şəhər İcra Hakimiyyətinin Mənzil Kommunal İstismar Sahəsinə müraciət olunmuşdur.

Gürcüstan Respublikası ərazisində olan Azərbaycan xalqına məxsus tarix və mədəniyyət abidələrinin mühafizəsini təmin etmək məqsədi ilə bu abidələr barədə məlumat toplanaraq Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə təqdim olunmuşdur.

Şamaxı şəhərində 1 nömrəli məktəbin həyətində aşkar edilmiş arxeoloji abidənin tədqiqi ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür.

Abidələrin mühafizəsini təmin etmək məqsədi ilə beynəlxalq səviyyədə aşağıda qeyd edilən proqramlar hazırlanmışdır:

- Daşınmaz mədəni irsin rəqəmsal inventarlaşdırılması.
- Yerli əhali arasında arxeoloji ərazilərin təbliği.

Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpa layihələrinin tərkibi, onların hazırlanması və razılaşdırılması üzrə təlimatın layihəsi hazırlanmışdır.

Respublikanın ərazisində ciddi qəza vəziyyətində olan abidələrin siyahısı tərtib edilmiş, qeyd olunan abidələrdə təxirəsalınmaz bərpa və konservasiya işlərinin aparılması məqsədi ilə vəsaitin ayrılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət olunmuşdur.

Abidələrin monitorinqinin keçirilməsi məqsədilə Tovuz, Gədəbəy, Şəmkir, Astara, Cəlilabad, İsmayıllı rayonlarında və ölkəmizin digər bölgələrindəki abidələrə texniki baxış keçirilmişdir.

Abidələrin qorunmasının təmin edilməsi, aparılan bərpa işlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə müvafiq təkliflər hazırlanmış və bu barədə aidiyyatı qurumlara müraciət edilmişdir.

Gəncədəki «Cümə» məscidinin və «Şah Abbas» karvansarasının bərpası ilə bağlı vəsaitin ayrılması məqsədilə İqtisadi İnkişaf Nazirliyinə sənədlər toplusu təqdim olunmuşdur.

Qaradağ rayonu, Səngəçal qəsəbəsindəki «Miəcik» karvansarasının bərpası və istifadəsi ilə bağlı təkliflər verilmiş, abidənin mühafizəsinin gücləndirilməsi məqsədilə rayon İcra Hakimiyyətinə müraciət olunmuşdur.

Azərbaycanın işğal olunmuş ərazilərində qalan abidələr üzərində ermənilərin iranlılarla birlikdə bərpa işləri aparmalarının qarşısını almaq məqsədi ilə müvafiq tədbirlərin görülməsi üçün Xarici İşlər Nazirliyinə müraciət edilmişdir.

Çin Xalq Respublikasının Ninqhsia Xuey Muxtar Rayonunun Xalq Hökuməti tərəfindən təşkil olunan «Dünya Müsəlman Mədəniyyət Parkı»nda Azərbaycan Respublikası üçün ayrılmış ərazi ilə bağlı müvafiq şərtlərin alınması məqsədilə Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinə müraciət olunmuşdur.

Hesabat dövründə «Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli Sərəncamına əsasən bərpası nəzərdə tutulan abidələrin siyahısı tərtib edilmişdir.

«2010-2015-ci illərdə daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması üzrə» hazırlanacaq Dövlət Proqramının layihəsinə təkliflər verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyul 2009-cu il tarixli 156 S saylı Sərəncamı ilə «Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair Tədbirlər Planı»nın icrası ilə bağlı kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması məqsədilə torpaq sahəsinin ayrılması üçün Quba rayon İcra Hakimiyyətinə, kütləvi məzarlığın mövcud vəziyyətdə saxlanılması məqsədilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə müraciətlər edilmişdir.

Gürcüstan Respublikasının ərazisindəki Azərbaycan mədəniyyətini əks etdirən tarix və mədəniyyət abidlərinin qorunması ilə bağlı təkliflər hazırlanmışdır.

Şəmkir rayonu qədim Şəmkir şəhərinin ərazisində «Şəmkir Dövlət tarix-mədəniyyət qoruğunun» və Göygöl rayonu Göygöl şəhərinin tarixi hissəsində «Göygöl şəhəri» Dövlət tarix-memarlıq qoruqlarının yaradılması haqqında müvafiq sənədlər hazırlanmış və Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Hesabat dövründə Azərbaycan Respublikasının Bakı şəhəri, Suraxanı rayonunda, Atəşgah məbədi ərazisində «Atəşgah məbədi» Dövlət tarix-memarlıq qoruğu elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 19 dekabr

2007-ci il tarixli Sərəncamının icrası ilə bağlı icra işləri sürətləndirilmiş, qoruğun qorunub saxlanılması, təbliği və maddi-texniki təminatı ilə əlaqədar təkliflər toplusu, həmçinin «Atəşgah məbədi» Dövlət tarix-memarlıq qoruğunun mühafizəsinin təmin olunması və maddi-texniki təminatı barədə» Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2009-cu il tarixli Sərəncamının icrası ilə bağlı qoruğun konservasiya və bərpası, həmçinin «Atəşgah» tarixi muzey mərkəzinin tikintisi məqsədilə layihə tapşırıqları hazırlanmışdır.

«Keşikçidağ» Dövlət tarix-mədəniyyət qoruğunun mühafizə zonalarının və sərhədlərinin müəyyən edilməsi ilə bağlı müvafiq təşkilatlarla yazışmalar aparılmış, nazirliyin müvafiq əmri ilə yaradılmış komissiyalar tərəfindən əraziyə bir necə dəfə baxış keçirilmiş və razılaşma əldə edilmişdir. Hazırda «Keşikçidağ» Dövlət tarix-mədəniyyət qoruğunun xəritəsinin hazırlanması yekunlaşmaq üzrədir. Eyni zamanda əraziyə turistlərin buraxılması üçün Dövlət Sərhəd Xidmətinə müraciət olunmuş və məsələ müsbət həll olunmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 19 dekabr 2007-ci il tarixli, 2564 nömrəli Sərəncamının 5 və 6-cı bəndlərinin icrası ilə bağlı «Xınalıq» Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun yeni inzibati binasının tikintisi üçün əraziyə baxış keçirilmiş, torpaq sahəsi ayrılmış və layihə-smeta sənədləri hazırlanmışdır. Eyni zamanda qoruğun sərhədlərinin təyin edilməsi və xəritələrin hazırlanması haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət edilmişdir. Hazırda işlər yekunlaşmaq üzrədir.

«Xınalıq» Dövlət tarix-memarlıq qoruğunun görkəminin saxlanılması üçün burada yerləşən evlərin dam örtüklərinin bərpasına vəsait ayrılması məqsədilə müvafiq təşkilatlara müraciət edilmişdir.

18 aprel - Beynəlxalq abidələr və tarixi yerlər və 18 may –Beynəlxalq muzeylər günləri ilə əlaqədar qoruqlarda Açıq qapı günləri, eyni zamanda Novruz Bayramı ilə əlaqədar tarix-mədəniyyət qoruqlarında «Çərşənbə axşamları» və Novruz şənlikləri keçirilmişdir. Novruz bayramı ilə əlaqədar keçirilən kütləvi tədbirlərdə 15.000-dən çox insan iştirak etmiş, 18 aprel - Beynəlxalq abidələr və tarixi yerlər günündə isə qoruqları 5.500-ə qədər turist ziyarət etmişdir.

«Atəşgah məbədi» Dövlət tarix-memarlıq qoruğunda keçirilən "Axır Çərşənbə" və «Novruz bayramı» şənliklərində 1950 nəfər iştirak etmişdir. «Şabran şəhəri» qoruğunda isə şənliklər zamanı «Çovqan» və digər milli oyunlar nümayiş etdirilmişdir.

18 aprel tarixində Qobustan Milli tarix-bədii qoruğunda «Qobustan pirləri» adlı tədbir keçirilmişdir. Tədbirdə yeni «Qobustan pirləri» adlı videoçarxın və eyni adlı kitabçanın təqdimat mərasimi olmuşdur.

27 may 2009-cu il tarixində «Şirvanşahlar Sarayı Kompleksi» Dövlət tarix - memarlıq qoruq-muzeyinin 45 illiyi qeyd edilmişdir. Tədbirdə «Şirvanşahlar Sarayı Kompleksi» və «Qız Qalası» haqqında yeni CD -lərin təqdimatı keçirilmiş, «Azərbaycan xatunları» adlı səhnələşdirilmiş tamaşa və tətbiqi sənət nümunələrindən ibarət sərgi nümayiş etdirilmiş, konsert proqramı təqdim olunmuşdur. Aprel ayının 20-də qoruq-muzeydə «Qədim Quranlar» adlı sərginin açılış mərasimi, 18 mayda «Muzey, Abidələrimiz, Turizm» adlı dəyirmi masa, 10 may tarixində Azərbaycan xanımlarının əl işlərindən ibarət sərgi keçirilmişdir.

Cari ilin 13 iyun tarixində «Atəşgah məbədi» Dövlət tarix-memarlıq qoruğunda «Sönməyən alovlar» adlı fotosərgi, 19 sentyabr tarixində «Alovlu gecələr» adlı ədəbi-musiqili axşam keçirilmişdir.

Cari ilin 23 sentyabr tarixində Nardaran tarix-mədəniyyət qoruğunda «Atəşgah məbədi» Dövlət tarix-memarlıq qoruğu ilə birgə Ramazan bayramı münasibəti ilə xeyriyyə tədbiri keçirilmişdir.

12 mart 2009-cu il tarixində Nizami Gəncəvi Məqbərəsi Kompleksində Nizami Gəncəvinin vəfatının 800 illiyinə həsr olunmuş geniş ədəbi-bədii tədbir təşkil olunmuşdur.

15 avqust tarixində Lahıc qoruğunda «Lahıc sənətkarlar diyarı» adlı tədbir keçirilmişdir.

«Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009» Mədəniyyət İli çərçivəsində 16-19 mart 2009-cu ildə Bakı şəhərində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Romualdo del Bianko Fondu (Florensiya, İtaliya) və İRSİCA -nın dəstəyi ilə «Ənənəvi islam memarlığı»

mövzusunda «Dərəcə və ixtisas», 16-22 may 2009-cu il tarixlərində «Sahilkənarı şəhərlərin müasir memarlığı», 2-3 iyun 2009-cu il tarixlərində "İslam tarixi şəhərləri və müasir memarlıq" adlı konfranslar keçirilmişdir.

Konfranslarda Türkiyə, Qazaxıstan, Dağıstan, Şimali Kipr Türk Cümhuriyyəti, İtaliya, İordaniya, Avstriya, Misir, Qazaxıstan, Türkmənistan, Litva, Böyük Britaniya, İtaliya, Slovakiya, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, Fransa, Rusiya və Azərbaycandan nümayəndələr iştirak etmişdir.

«Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009» Mədəniyyət İli çərçivəsində 15-17 sentyabr 2009-cu il tarixlərində Azərbaycan Respublikasında mədəni irs sahəsində çalışan mütəxəssislərin peşə səviyyəsinin artırılması üzrə milli seminar, 2-3 iyun 2009-cu il tarixlərində "İslam Tarixi Şəhərləri və Müasir Memarlıq" adlı beynəlxalq konfrans keçirilmişdir.

**KİNEMATOQRAFİYA**

2009-cu il ərzində Kinematoqrafiya sahəsində bir sıra mühüm işlər görülmüşdür.

Kino istehsalı üzrə dövlət studiyaları və müstəqil prodüser mərkəzlərində film istehsalı davam etmişdir.

"Azərbaycanfilm" studiyasında "Niyyət" filmi tamamlanmışdır. Həmin studiyada "İstanbul reysi", "Aparıcı", "Buta", "Şəkil" "Vəhvalatı", "Bəşəriyyətin xilaskarı", "İbrus" şirkətində "Kabus" (Azərbaycan -Fransa), "Pozitiv Media" şirkətində "Aktrisa", "Nəriman-film" Prodüser Mərkəzində "Sahə", "Bizim kino" PM-də "İlahi məxluq", "Kuklalar", "Sınaq film" PM-də "Ölüm növbəsi" bədii filmləri üzərində işlər istehsal prosesinin ayrı-ayrı mərhələlərindədir.

İlin əvvəlində "Bu meydan, bu ekran" müsabiqəsi çərçivəsində gənc rejissorlar tərəfindən müstəqil studiyalarda "Saat", "Koramal", "Qocalar", "Qara qutu", "İki", "Daş atan", "Bir addım" qısametrajlı bədii filmlər çəkilişləri başa çatmışdır. "Debüt" studiyası "Xəyalların gündəliyi", "Yaddaş" studiyası "Dünən qəfildən gəldi" qısametrajlı bədii filmləri istehsal etmişdir.

“Salnamə” studiyası “Dədə yolları” (“Zəlimxan Yaqub”) filmini çəkib qurtarmışdır. Dekabrın 22-də filmin ictimaiyyət üçün təqdimatı keçirilmişdir. Studiya Almaniya ilə birgə “Yolların axtarışında. Azərbaycanda almanların məskunlaşması” sənədli filmi, eləcə də “Qala qoruğu” filminin istehsalını davam etdirir.

“Yaddaş” studiyası «Onun böyük ürəyi» (“İmran Qasımov”), “Lütfəli Abdullayev” (“İkinci ömür”) sənədli filmlərini təhvil vermişdir, hazırda “Mustafa Topçubaşov”, “Vəcihə Səmədova” filmlərinin çəkilişləri başa çatmaq üzrədir.

Sentyabr ayında “Debüt” studiyası “Psixiatr” qısametrajlı filmin istehsalına başlamışdır. “Azanfilm”də “Tırtıl” və “İt sərgisi” cizgi filmləri çəkilir, “Birlik” prodüser mərkəzində “Kirpi qonşularını necə barışdırdı” cizgi filminin istehsalı başa çatmışdır.

Hesabat dövründə “Mozalan” studiyası iki nömrəsinin buraxılışını təmin etmişdir.

Bakının 2009-cu ildə İslam Mədəniyyəti paytaxtı elan olunması ilə əlaqədar milli mədəniyyətimizin bir sıra sahələrinə həsr olunmuş sənədli filmlər çəkilmişdir, o cümlədən “Azərbaycan xalçaları”, “Azərbaycan musiqisi”, “İçəri şəhər”, “Muğam”, “Milli mətbəx”. Filmlər DVD toplusu şəklində nəfis tərtibatla buraxılmışdır.

Cari ilin yanvar-may aylarında Nazirliyin Kino üzrə Ekspert şurası tərəfindən 2010-cu ilin film istehsalının planına uyğun ssenari portfeli yaratmaq məqsədilə bədii, sənədli və cizgi filmlərin sinopsislər (sifarişlər) müsabiqəsi keçirilmişdir. Daxil olan 110 iş arasında seçilmiş 10 müəllif müsabiqənin növbəti mərhələsinə ssenarilərini təqdim etmişlər. Onlardan Çingiz Abdullayevin “Çevrilmiş dünya” və Murad İbrahimbəyovun “Ən yaxşı qardaş” ssenariləri növbəti ilin istehsalat planına daxil edilmişdir.

Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hesabat ilinin əvvəlində xüsusi layihə üzrə inşa edilmiş Dövlət Film Fondunun yeni binası və burada görülən işlərlə tanış olmuşdur. Dövlət Film Fondunun milli filmlər və xarici kino kolleksiyaları yeni binaya köçürülmüş, onların yeni texnoloji imkanlardan istifadə edərək qorunub saxlanılması üçün texniki xarakterli bir sıra tədbirlər görülmüşdür.

Bu il fevralın 25-də "Ritm prodakşn" studiyasında dövlət sifarişi əsasında istehsal olunmuş "40-cı qapı" bədii filminin premyerası keçirilmişdir. Həmin film aprel ayında ABŞ-ın Hyuston şəhərində keçirilən beynəlxalq kinofestivalda mükafata layiq görülmüş, "A" kateqoriyalı Karlovı Varı (Çexiya) beynəlxalq festivalında, "Şərq-Qərb"-2009 festivalının "Ən yaxşı debüt" mükafatına layiq görülmüşdür. 2009-cu il ərzində film 15 beynəlxalq festivalda iştirak etmiş, mükafatlar almışdır.

Ümumiyyətlə hesabat ilində filmlərimiz 24 ölkədə keçirilən 34 beynəlxalq kinofestivalda təmsil olunmuşlar.

Mayın 11-dən 19-dək Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan Kinosu Həftəsi keçirilmişdir. Tədbirdə kinematoqrafçılarımızdan ibarət nümayəndə heyəti iştirak etmişdir. Yerli ziyalılar, o cümlədən kinematoqrafçılar, diplomatik korpus və diaspora nümayəndələrinin iştirak etdikləri açılış mərasimi təntənəli şəraitdə keçmişdir. Kino həftəsində on beş yeni və ötən illərdə çəkilmiş bir çox filmimiz macar tamaşaçılarına təqdim olunmuşdur. Macar kino qurumlarında bir sıra işgüzar görüşlər keçirilmişdir.

Avqustun 2-də Kino gününə həsr olunmuş bayram yığıncağı iştirakçıları üçün "Cavad xan" bədii filminin premyerası keçirilmişdir. Sentyabrın 18-də həmin filmin təqdimatı Gəncə şəhərində təşkil olunmuşdur.

Sentyabrın 22-də Heydər Əliyev Sarayında "Qala" bədii filminin təqdimatı keçirilmişdir.

Sentyabrın 18-23-də XI "Şərq-Qərb" Bakı Beynəlxalq kinofestivalı keçirilmişdir. Bu festivalın əlamətdar cəhəti Bakının 2009-cu il üçün islam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar müsəlman ölkələri kinosunun xüsusi proqram şəklində təqdim olunmasıdır. Festivalda 20-dən artıq xarici ölkənin 120-dən çox nümayəndəsi iştirak etmişdir.

Noyabrın 25-27-də keçirilmiş VI "Start" Beynəlxalq Tələbə Filmləri Festivalında 14 ölkədən 26 film iştirak etmişdir.

"Bakı – İslam Mədəniyyətinin Paytaxtı - 2009" layihəsi çərçivəsində bir sıra xarici ölkənin, o cümlədən İran, Misir, Türkiyə, İordaniya və Mərakeşin kino günləri təşkil olunmuşdur,

Dekabrın 18-də "Bakı – İslam Mədəniyyətinin Paytaxtı - 2009" tədbirinin bağlanış mərasiminə Bakıya gəlmiş xarici qonaqların iştirakı ilə "Niyyət" bədii filminin təqdimatı keçirilmişdir.

Ölkədə Uşaq İlinin keçirilməsi ilə əlaqədar noyabrın 19-da Dövlət Film Fondunda uşaq kino bayramı təşkil olunmuşdur. Həmin tədbirdə Heydər Əliyev Fondu ilə birgə hazırlanmış "Bir nağıl söylə mənə" növbəti cizgi filmləri toplusunun təqdimatı, Uşaq Kino Evinin, həmçinin "Mən kino çəkirəm" uşaq rəsmləri sərgisinin təqdimatı, "Nuş olsun" yeni cizgi filminin premyerası keçirilmişdir.

1943-cü ildə Bakı kinostudiyasında istehsal olunmuş "Bir ailə" bədii filminin ilkin materiallarının Rusiyada bərpa edilərək, 35 mm -lik nüsxəsi hazırlanmış və Dövlət Film Fondunun kolleksiyasına əlavə edilmişdir.

Dövlət Film Fondunun yeni binasında "Heydər Əliyev və kino" mövzusunda fotosərgi və elmi konfrans, Muzey Mərkəzində SSRİ Xalq Artisti Əjdər İbrahimovun 100 illiyinə, görkəmli kinorejissorlar Səməd Mərdanovun 100 illiyinə, Tofiq Tağızadənin 90 illiyinə, Şamil Mahmudbəyovun 85 illiyinə, Kamil Rüstəmbəyovun 85 illiyinə həsr olunmuş xatirə gecələri, bəstəkar Tofiq Quliyevə həsr olunmuş fotosərgi təşkil edilmişdir. Eyni zamanda hesabat dövründə, tanınmış kinorejissor Tofiq İsmayılovun 70 illiyinə həsr olunmuş yubiley gecəsi, xalq artisti Məmmədrza Şeyxzamanovun 110 illiyinə, xalq rəssamı Məmmədağa Hüseynovun 80 illiyinə həsr olunmuş xatirə axşamları, "Yaramaz" bədii filminin ekranlara çıxmasının 20 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Mayın 19-21-də "Bu meydan, bu ekran" müsabiqəsinin qalibi olan qısametrajlı filmlər üç gün ərzində nümayiş etdirilmiş və onlara 1,2 min tamaşaçı baxmışdır.

Sentyabr-noyabr aylarında penitensiar sistemin islah-əmək müəssisələrində saxlanılan vətəndaşlar üçün ölkəmiz haqqında sənədli filmlərin nümayişi təşkil olunmuşdur.

İl ərzində təbliğat məqsədi ilə istifadə olunmaq üçün ayrı-ayrı xarici və yerli təşkilatlara 1500-dən artıq bədii və sənədli Azərbaycan filmi göndərilmişdir.

Filmlərin Dövlət reyestrinin fəaliyyəti ilə bağlı yerli və xarici filmlərin qeydə alınması işi davam etdirilmiş və hesabat dövrü ərzində ayrı-ayrı televiziya kanalları,

audiovizual məhsulun yayımı ilə məşğul olan şirkətləri tərəfindən təqdim olunan 1864 film qeydə alınmışdır. Dövlət və özəl TV kanalları ilə xarici filmlərin proqram cədvəllərinin nizamlanması üzrə iş aparılmışdır.

## NƏŞRİYYAT, REKLAMIN TƏŞKİLİ VƏ İNFORMASİYA

Hesabat dövründə nəşriyyat, reklamın təşkili və informasiya sahəsində nəzərdə tutulan tədbirlər həyata keçirilmiş, bir sıra mühüm əsər layihələri gerçəkləşdirilmişdir.

Azərbaycan xalqının tarixi adları, tarixi və mədəniyyət sərvətləri ilə bağlı işarələrin hüquqi və fiziki şəxslər tərəfindən istifadəsinə icazə verilməsi qaydaları haqqında kollegiya məsələsinə baxılmış, müvafiq qərar qəbul edilmiş, il ərzində 15 hüquqi və fiziki şəxsə bu tip adlardan istifadə üçün icazə sənədi verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 avqust 2007-ci il tarixli, 612 nömrəli Sərəncamına əsasən 50 nəfər yaşlı və 20 nəfər gənc yazıçıya 2009-cu il üçün xüsusi təqaüdlərin verilməsi ilə əlaqədar məsələlər həll olunmuşdur.

15 aprel 2009-cu il tarixdə M.F.Axundov adına Milli Kitabxanada 2008-ci il üçün "Mədəniyyət mövzusunda ən yaxşı jurnalist işi" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

Xalq yazıçısı, "İstiqlal" ordenli İsa Muğannanın 6 cildlik "Seçilmiş əsərləri", Tariyel Məmmədovun "Azərbaycan klassik aşıq havaları", İlham Rəhimlinin "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı", Mustafa Çəmənlinin «Leyli və Məcnun. 100 il səhnədə», Məsud Əlioğlunun II cildlik «Darıxan adamlar», Tofiq Bakıxanovun «Şahnaz» və «Rahab» (not kitabları), Zəlimxan Yaqubun «Mən öz dastanımı yazıb gəlmişəm» və "Millətdə, dövlətdə, sənətdə", Hüseyn Abbaszadənin «Nurdan yoğrulmuşlar» və Rəhilə Gülgünün «Xəbərin rəngi», Məlahət Fərəcovanın «Azərbaycan qayaüstü incəsənəti» (üç dildə), Rafiq Quliyevin «Azərbaycan səssiz kinosunun təsvir irsi», Saleh Tahirovun "Yollar, mənzərələr", Aydın Talıbzadənin "Mehdi müəmması və ya sənətdə konseptual hamletizm" adlı kitabları, "Poeziya günü" toplusunun 2-ci sayı, "Mədəniyyət 2009-2"

kataloqu, Gürcüstanda yaşayan azərbaycanlı şair və yazıçıların əsərlərindən ibarət "Borçalının söz boğçası" toplusu, eyni zamanda ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın mədəniyyət sahəsində çoxşaxəli fəaliyyətini əks etdirən «Kultura i kulturnıe şedevrı – unikalnoe poslanie buduşim pokoleniem» kitabı, Cavanşir Quliyevin «Piano əsərləri», «Kvartetlər», Abbasqulu Nəcəfzadənin «Müşfiqin duyğu yarpaqları», Nərgiz Şəfiyevanın «Qara Qarayev tələbələrinin xatirəsində», Zirəddin Tağıyevin «Üç din, üç dua» kitabları çap edilmişdir.

6 may 2009-cu il tarixdə R.Behbudov adına Mahnı Teatrında 4 nominasiya üzrə (nəsr, poeziya, ədəbi tənqid və publisistika və orijinaldan bədii tərcümə) elan olunan "Qızıl Kəlmə" Ədəbi Mükafatının təqdimetmə mərasimi keçirilmişdir. Mükafat komissiyasının rəyi əsasında "Qızıl Kəlmə" Ədəbi Mükafatı Nəsr nominasiyası üzrə Aqil Abbasın "Dolu" və Elçin Hüseynbəylinin "On üçüncü həvari – Don Juan" romanlarına, Poeziya nominasiyası üzrə Zakir Fəxrinin "Qalmaz belə, qalmaz dünya" şeirlər kitabı və Taleh Həmidin 4 cildlik seçilmiş əsərlərinin 1-ci və 2-ci cildlərinə, Publisistika nominasiyası üzrə Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabına, Bədii tərcümə nominasiyası üzrə Saday Budaqlının tərcümə etdiyi Mixail Bulqakovun "Master və Marqarita", Məmməd Orucun tərcümə etdiyi Gülşən Lətifxanın "Azər və Aida" romanlarına verilmişdir.

"Qızıl Kəlmə" Ədəbi Mükafatı çərçivəsində "Şans" ödülü mükafatına isə Yunus Oğuzun "Nadir şah" romanı və Səlim Babullaoğlunun "İlyas Göçmənin şəkil dəftəri" şeirlər kitabı layiq görülmüşdür.

İyun ayının 1-də Nazirliyin təşəbbüsü ilə M. F. Axundov adına Milli Kitabxanada ölkədə fəaliyyət göstərən nəşriyyat və poliqrafiya müəssisələri rəhbərlərinin respublika müşavirəsi keçirilmişdir. Tədbirdə 30-dan yuxarı nəşriyyat və poliqrafiya müəssisəsinin nümayəndəsi iştirak etmişdir.

M. F. Axundov adına Milli Kitabxanada "Gənc Ədiblər Məktəbi"nin məşğələləri davam etdirilmişdir. Məktəbin son məşğələlərində iştirakçı gənclərin sayı daha da artmış, ölkə mətbuatında və elektron KİV-də məktəbin fəaliyyəti barədə geniş

məlumatlar və yazılar dərc olunmuş, zəruri məlumatlar Nazirliyin rəsmi internet saytında yerləşdirilmişdir.

Hesabat dövründə Nazirlik nəşriyyat işləri ilə bağlı bir sıra beynəlxalq tədbirlərdə iştirak etmişdir. Belə ki, 22-28 yanvar 2009-cu il tarixdə Qahirədə, 11-15 fevral 2009-cu il tarixdə Belorusda, 18 fevral – 5 mart 2009-cu il tarixlərində Misir Ərəb Respublikasında, 6-16 may 2009-cu il tarixdə Tehran şəhərində keçirilən Beynəlxalq Kitab Sərgi-Yarmarkalarında Azərbaycan kitabı uğurla nümayiş etdirilmişdir.

25-28 fevral 2009-cu il tarixində Bişkek şəhərində keçirilən «Aytmatov və müasirlik» Beynəlxalq Forumunda və Rusiya Ədalət Məhkəməsi Akademiyası tərəfindən 25-26 mart 2009-cu il tarixdə Moskva şəhərində keçirilən «Müəllif hüququ – birliyin perspektivləri» Beynəlxalq Konfransında Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyətinin iştirakı təmin olunmuşdur.

1-2 aprel 2009-cu il tarixdə Düşənbə şəhərində "Dövri mətbuat, kitab nəşri, kitab yayımı və poliqrafiya məsələləri üzrə Dövlətlərarası Şura"nın XII iclasında çap məhsullarının qarşılıqlı mübadiləsinə əlverişli şərait yaradılması haqda müqavilə, MDB ölkələrinin VI "Kitab Sənəti" Beynəlxalq Müsabiqəsinin keçirilməsinə hazırlıq işləri və MDB-nin müştərək çap orqanlarının təsis edilməsi də daxil olmaqla ümumiyyətlə 9 məsələ müzakirə olunmuşdur.

16-20 aprel 2009-cu il tarixdə Ağrı Vilayətində keçirilən Beynəlxalq Poeziya Festivalında Azərbaycan ədiblərinin iştirakı təmin olunmuşdur.

20-21 aprel 2009-cu il tarixdə M. F. Axundov adına Milli Kitabxanada "İslam düşüncəsi kitab səhifələrində" adlı sərgi keçirilmişdir.

20-22 aprel 2009-cu il tarixdə milli kitablarımız və miniatür kitablar Böyük Britaniyanın London şəhərində keçirilən «London Beynəlxalq Kitab Sərgisi»ndə nümayiş etdirilmişdir. Sərgidə Azərbaycan kitablarına, xüsusən Miniatür Kitab Muzeyinin kolleksiyasına tamaşaçılar böyük maraq göstərmişlər.

4-5 iyun 2009-cu il tarixdə Moskva şəhərində keçirilən VI Beynəlxalq "Kitab sənəti" Müsabiqəsində iştirak edən 11 Azərbaycan kitabından 3-ü müxtəlif nominasiyalar üzrə 2-ci və 3-cü yerlərə layiq görülmüşdür.

30 may 2009-cu ildə Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə İsmayıllı şəhərində "Sabir Poeziya Günləri" keçirilmişdir. Nazirliyin əməkdaşlarının, şairlərin, musiqiçilərin və mətbuat nümayəndələrinin qatıldığı 40 nəfərdən artıq nümayəndə heyəti əvvəlcə şairin Bakıdakı heykəlini, daha sonra Şamaxıdakı qəbrini ziyarət etmiş, daha sonra İsmayıllı rayonunda olmuşlar. Ulu öndər Heydər Əliyevin abidəsi önünə gül qoyulması və ümummilli liderin adını daşıyan muzeyin ziyarəti ilə başlayan, rayon icra hakimiyyəti rəhbərliyinin də qatıldığı mötəbər tədbir açıq havada təntənəli şəkildə qeyd edilmişdir.

31 may 2009-cu ildə M. F. Axundov adına Milli Kitabxanada "Sabir Poeziya Günləri"nin yekun tədbiri olmuşdur. Kitab sərgisinin nümayişi ilə başlayan tədbir şeirlər və musiqi nömrələri, Sabirin həyat və yaradıcılığı ilə bağlı çıxışlarla davam etmişdir.

10-12 sentyabr 2009-cu il tarixlərində Muzey Mərkəzində Azərbaycanda ilk dəfə olaraq I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası təşkil olunmuşdur. Həm mətbuatda, həm də oxucular arasında böyük marağa səbəb olan sərgi-yarmarkada 20 xarici ölkədən təxminən 35-ə yaxın, Azərbaycandan isə 60-dan artıq yerli nəşriyyat və poliqrafiya müəssisəsi iştirak etmişdir. Bütövlükdə 90 -dan artıq qurumun təmsil olunduğu bu tədbir çərçivəsində keçirilən təqdimat mərasimləri və görüşlər də iştirakçıların diqqətini çəkmiş, ölkə mətbuatında geniş işıqlandırılmışdır.

Sərgidə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə çap olunan kitabların, Xalq Yazıçısı İsa Muğannanın 6 cildlik "Seçilmiş əsərləri"nin, "Poeziya günü" almanaxının, Xalq Şairi Sabir Rüstəmxanlının "Ömür kitabı"nın, Aqil Abbasın "Dolu" romanının, millət vəkili Xanhüseyn Kazımlının "Böyük siyasətin davamı" kitabının, "Mədəniyyət" kataloqunun, "Avrasiya-Press" nəşriyyatının çap etdiyi qaçqınlardan bəhs edən "Həqiqətlə üzbəüz", Regionların İnkişafı İctimai Birliyi tərəfindən çap edilən "365 gün əziz Peyğəmbərlə" kitabının, Viktor Andryanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabının, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə üç dildə nəşr olunmuş "Azərbaycan qayaüstü incəsənəti" kitabının, Xalq Şairi Zəlimxan Yaqubun "Mən öz dastanımı yazıb

gəlmişəm" və "Millətdə, dövlətdə, sənətdə" kitablarının uğurlu təqdimat mərasimləri olmuş, "Qızıl Kəlmə" Ədəbi Mükafatının laureatları ilə oxucuların görüşü keçirilmişdir.

Prezident Sərəncamı ilə çap olunan kitablar, Nazirliyin nəşrləri sərgidə xüsusi stenddə nümayiş etdirilmişdir.

Eyni zamanda sərgi çərçivəsində M.F.Axundov adına Milli Kitabxananın kitabları təqdim edilmiş, sərginin sonuncu günü xarici ölkələrdən gələn bir sıra nəşriyyatlar öz çap məhsullarını milli kitabxanaya hədiyyə etmişlər.

I Bakı Beynəlxalq Kitab Sərgi -Yarmarkasında fəal iştirak edən nəşriyyat və poliqrafiya müəssisələrinin müvafiq diplomlarla təltif olunması və eyni zamanda müxtəlif beynəlxalq sərgilərdə Azərbaycan naşirlərini qazandığı diplom və mükafatların təqdimat mərasimləri keçirilmişdir.

14-18 oktyabr 2009-cu il tarixdə Almaniyanın Frankfurt şəhərində keçirilən 60-cı Beynəlxalq Kitab Sərgisində Nazirliyin iştirakı üçün hazırlıq işləri görülmüş, sərgidə uğurlu iştirak təmin olunmuşdur.

11 dekabr 2009-cu ildə İSESKO ilə birlikdə M.F.Axundov adına Milli Kitabxanada "Bakı – İslam Mədəniyyətinin Paytaxtı – 2009" tədbirləri çərçivəsində Xaqaniyə həsr olunmuş milli seminar keçirilmişdir.

15-16-dekabr 2009-cu il tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq AYB ilə birlikdə Azərbaycan Yazıçılar Birliyinin yaradılmasının və "Ədəbiyyat qəzeti"nin nəşrə başlamasının 75 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir.

21 dekabr 2009-cu il tarixdə "2007 -2009-cu illər üzrə humanitar sahədə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı"na uyğun olaraq dahi rus şairi A.S.Puşkinin anadan olmasının 210 illiyinə həsr olunmuş kitab sərgisi və poeziya məclisi keçirilmişdir.

22 dekabr 2009-cu il tarixdə görkəmli jurnalist Nəsir İmanquliyevə həsr olunmuş "Xəbərin rəngi" kitabının təqdimat mərasimi keçirilmişdir.

23 dekabr 2009-cu ildə R.Behbudov adına Dövlət Mahnı Teatrında Rəfiq Zəka Xəndanın 70 illik yubileyi qeyd olunmuşdur.

# ELM VƏ TƏHSİL

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 avqust tarixli 309 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2009-2013-cü illər üçün Azərbaycan Respublikasında Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramı»nın icrası ilə əlaqədar müəyyən işlər görülmüşdür.

2009-cu il 1 sentyabr tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar «2008/2009-cu tədris ilinin yekunları və respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin qarşısında duran vəzifələr» mövzusunda müşavirə keçirilmişdir. Müşavirədə «2009 -2013-cü illər üçün Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramı»nın icrası ilə əlaqədar məktəblərin idarə olunması, məktəblərdə təlim-tərbiyə işinin təşkilində mövcud problemlərin aradan qaldırılması, uşaq və gənclərin müasir tələblərə cavab verən təhsilə yiyələnməsi, gənc nəslin estetik tərbiyəsi, istedadlı uşaqların üzə çıxarılması, onların yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması kimi məsələlər müzakirə edilmiş, respublikada bədii təhsilin keyfiyyətinin yüksəldilməsi və sürətli inkişafının təmin edilməsi sahəsində qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

2009-cu ilin mart ayında «Mingəçevir Turizm Kollecində tədris işinin təşkili barədə», dekabr ayında «Respublikanın uşaq incəsənət məktəblərində tədris işinin vəziyyəti barədə» məsələlər Nazirliyin Kollegiya iclasında müzakirə edilmişdir.

Əzizbəyov rayonunun Buzovna qəsəbəsində yerləşən 4 nömrəli Uşaq İncəsənət Məktəbi əsaslı təmirdən sonra 2009-cu il 19 mart tarixində istifadəyə verilmişdir.

2009-cu ilin iyul-avqust aylarında Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində Uşaq musiqi və incəsənət məktəblərində çalışan qeyri-ixtisas və qeyri-pedaqoji təhsilli müəllimlər üçün təşkil edilmiş gücləndirilmiş ixtisasartırma kurslarında respublikanın şəhər və rayonlarından 200 müəllim iştirak etmişdir.

Bərdə şəhərində uşaq incəsənət məktəbinin yeni binası istifadəyə verilmiş və 2009-cu il 1 sentyabr tarixindən məktəb fəaliyyətə başlamışdır.

Bakı Xoreoqrafiya Məktəbi, Uşaq musiqi və incəsənət məktəbləri üçün 6 adda dərslik, 13 adda dərslik və dərs vəsaiti, 15 adda tədris proqramı çap olunmuş, F. Bədəlbəyli, O. Rəcəbov, F. Əhmədbəyovanın "İki fortepiano üçün ansamblllar" müntəxəbatı, F. Bədəlbəyli O. Rəcəbov, N. Quliyevanın "Fortepianoda çalmaq üçün vəsait" (V-VI siniflər) dərsliyi alınmış və əvəzsiz olaraq məktəblərə verilmişdir.

Nazirliyin vəsaiti hesabına 73388 manat məbləğində musiqi alətləri alınmış və əvəzsiz olaraq uşaq musiqi və incəsənət məktəblərinə, Bakı Xoreoqrafiya Məktəbinə verilmişdir.

Gözdən əlil uşaqların təhsil aldığı Bakı şəhər 38 nömrəli Uşaq Musiqi Məktəbi üçün inventar və musiqi alətləri alınmış, "Brayl not sistemi" kitabının rus dilindən Azərbaycan dilinə tərcümə edilməsi üçün vəsait ayrılmışdır.

Mədəniyyət və Turizm Nazirliyi sistemində fəaliyyət göstərən uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində pedaqoji kadrların işə qəbulu Qaydaları hazırlanmış, təsdiq olunaraq yerlərə göndərilmişdir.

Nazirliyin Mədəniyyətşünaslıq üzrə Elmi -Metodiki Mərkəzi ilə Rusiya Kulturologiya İnstitutu və Tbilisi Dövlət Universitetinin YUNESKO kafedrası, arasında əməkdaşlıq müqavilələri hazırlanmış, Tbilisi Dövlət Universitetinin YUNESKO kafedrası ilə əməkdaşlıq müqaviləsi hazırlanıb imzalanmışdır (noyabr).

Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə əlaqədar Dövlət Proqramının icrasına dair təkliflər hazırlanmışdır.

2009-cu il 16-17 mart tarixlərində Bakı şəhərində uşaqların rəsm əsərlərindən və əl işlərindən ibarət «Novruz - Bahar bayramı» adlı respublika müsabiqə -sərgisi keçirilmişdir.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi -Bərpa Mərkəzinin əməkdaşları tərəfindən Lənkəran şəhər, Astara, Lerik və Masallı rayonlarının muzeylərində çalışan rəssam-bərpaçılar və fond mühafizləri üçün Lənkəran şəhərində 2009-cu il 16-18 mart tarixlərində təlim-sərgilər keçirilmişdir.

"Uşaq ili"çərçivəsində 2009-cu il martın 30-da Alman-Azərbaycan Mədəniyyət Birliyinin Kapellhaus zalında Bakı şəhər Q.Qarayev adına 8 nömrəli Uşaq Musiqi Məktəbi şagirdlərinin, aprelin 25-də Şamaxı rayon Mədəniyyət Sarayında Bakı şəhər T.Quliyev adına 12 nömrəli Uşaq Musiqi və Şamaxı rayon Nəsimi adına Uşaq İncəsənət məktəbləri şagirdlərinin birgə konserti keçirilmişdir.

Respublikada zəngin xor mədəniyyətinin qorunub saxlanılması və inkişaf etdirilməsi, uşaq musiqi və incəsənət məktəblərində xor fənninin tədrisinin səviyyəsinin yüksəldilməsi, uşaqlarda kiçik yaşlarından xor sənətinə maraq oyadılması, xormeysterlərin yaradıcılıq fəaliyyətinin aktivləşdirilməsi və həvəsləndirilməsi məqsədilə 2009-cu il 7-29 aprel tarixlərində zonalar üzrə Bakı, Gəncə, Lənkəran, Naxçıvan, Sumqayıt, Şəki, Şirvan şəhərlərində Uşaq xor kollektivlərinin VI respublika müsabiqəsi keçirilmişdir. Müsabiqədə respublikanın şəhər və rayonlarından 10.000-dən çox şagird iştirak etmişdir.

Cari ilin 21 aprel tarixində Azərbaycan, Böyük Britaniya, Gürcüstan, Fransa, Rusiya nümayəndələrinin iştirakı ilə "Turizm – mədəniyyətlərarası dialoqu təmin edən amil kimi" adlı Tələbələrin I Beynəlxalq Bakı Konfransı keçirilmişdir.

Ölkədə fortepiano ixtisası üzrə musiqi təhsilinin inkişaf etdirilməsi, bu istiqamətdə gənc istedadların üzə çıxarılması, şagirdlərin ifaçılıq səviyyəsinin yüksəldilməsi məqsədilə 2009-cu ilin aprel ayında Gənc pianoçuların respublika müsabiqəsinə yekun vurulmuşdur.

2009-cu il 1-3 may tarixlərində Bakı şəhərində Uşaq rəqs kollektivlərinin II respublika baxış-festivalı təşkil edilmişdir. Baxış-festivalda Bakı, Sumqayıt, Şəki şəhərlərinin, Abşeron, Ağstafa, Balakən, Füzuli, Qax, Qəbələ, Qusar, Salyan rayonlarının, Naxçıvan Muxtar Respublikasının Şərur və Kəngərli rayonlarının uşaq rəqs kollektivləri iştirak etmişlər. 2009-cu il 21 may tarixində R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında baxış-festivalın yekun konserti keçirilmişdir.

2009-cu il 29 may –1 iyun tarixlərində Bakı şəhərində "Şərq-Qərb dünyası uşaqların gözü ilə" beynəlxalq rəsm müsabiqəsi keçirilmişdir. Müsabiqədə iştirak etmək üçün Azərbaycan, Belarus, Bolqarıstan, Çin, Filippin, Gürcüstan, Honq-Konq, İsrail, Qatar, Qazaxıstan, Latviya, Misir, Rusiya, Tayland, Türkiyə, Ukrayna,

Pakistan, Polşa və s. ölkələrdən 5-15 yaşlı uşaqların 2000-ə yaxın rəsm əsəri daxil olmuşdur. Müsabiqənin Əsasnaməsinə müvafiq olaraq bunlardan ən yaxşı 300 əsər seçilmiş və 2009-cu il 1 iyun tarixində - Beynəlxalq Uşaqları Müdafiə Günündə Muzey Mərkəzinin incəsənət qalereyasında təşkil olunmuş sərgidə nümayiş etdirilmişdir.

2009-cu il 9-10 noyabr tarixlərində "İslamda Mədəniyyət və gözəllik amili" adlı Beynəlxalq Elmi Konfrans keçirilmişdir.

2009-cu il 18 noyabr tarixində M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Respublikası Prezident təqaüdçülərinin konserti keçirilmişdir.

2009-cu il 2-4 dekabr tarixlərində Gəncə şəhərində alimlərin iştirakı ilə "Mədəni müxtəliflik və özünəməxsusluq" adlı seminar keçirilmişdir.

2009-cu il 15 dekabr tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet teatrında Bakı Xoreoqrafiya Məktəbinin 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

2009-cu il 18-22 mart tarixlərində Estoniya Respublikasının Narva şəhərində keçirilmiş İ.S.Bax adına gənc pianoçuların Beynəlxalq müsabiqəsində Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdləri uğurla iştirak etmişlər.

P.İ.Çaykovski adına Böyük Simfonik Orkestrinin rəhbərliyinin dəvətinə əsasən 2009-cu il 26 mart tarixində Moskva Dövlət Konservatoriyasının Böyük salonunda keçirilmiş folklor musiqisindən və görkəmli Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsertdə Heydər Əliyev adına Müasir Təhsil Kompleksi nəzdində fəaliyyət göstərən 39 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi, Prezident təqaüdçüsü Elməddin İbrahimov (xanəndə), tarzən Sahib Paşazadə və kamançaçı Toğrul Əsədullayevdən ibarət muğam üçlüyü iştirak etmişdir.

2009-cu il 22-27 aprel tarixlərində Belarus Respublikasının Mozır şəhərində keçirilən "Yer kürəsi ağ qanadlar altında" adlı Gənc istedadların VI Beynəlxalq Festivalında Bakı şəhər T.Quliyev adına 12 nömrəli Uşaq Musiqi Məktəbinin və S.Ələsgərov adına 1 nömrəli Uşaq İncəsənət Məktəbinin şagirdləri, 1-8 may

tarixlərində Gürcüstanın Tbilisi şəhərində keçirilən Gənc pianoçuların IV beynəlxalq müsabiqəsində isə Bakı şəhər R.Hacıyev adına 15 nömrəli Uşaq Musiqi Məktəbinin və L. və M. Rostropoviçlər adına 21 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdləri iştirak etmişlər.

Bakı şəhər Q.Qarayev adına 8 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi Mədinə Şahgəldiyeva (kamança) və konsertmeyster Sevinc Kərimova 2009-cu il 21 may tarixində Vladimir Spivakov Beynəlxalq Xeyriyyəçilik Fondu tərəfindən keçirilən "Moskva dostlarını qarşılayır" VI Beynəlxalq festivalına həsr olunmuş Təqdimat mərasimində iştirak etmişlər.

2009-cu il 19 may-6 iyun tarixində Belçikada keçirilmiş Sən-Gislən Ümumdünya Folklor Festivalında Bakı Xoreoqrafiya Məktəbinin şagird və tələbələrindən ibarət «Bakı ulduzları» ansamblı uğurla iştirak etmişdir.

Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin dəstəyi ilə «İnternational Women Contact of Hugue» Təşkilatı və Azərbaycanın Holland Dostları İctimai Birliyi tərəfindən 2009-cu il 08 iyun tarixində Haaqanın tanınmış Museonun muzey-sərgi mərkəzində keçirilmiş və Dirçəliş Gününə həsr edilmiş konsertdə Bakı şəhər uşaq musiqi və incəsənət məktəblərinin, Bakı Xoreoqrafiya Məktəbinin şagirdləri iştirak etmişlər.

2009-cu il 22-28 iyul tarixində Suriya Ərəb Respublikasının Dəməşq şəhərində keçirilmiş gənc pianoçuların II beynəlxalq müsabiqəsində Bakı şəhər R.Hacıyev adına 15 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi Kamil Həsənov III yer tutaraq müsabiqənin laureatı adına və pul mükafatına layiq görülmüşdür.

İstedadlı gənc skripkaçı, Azərbaycan Respublikası Prezidentinin təqaüdçüsü Elvin Xoca Qəniyev 2009-cu il 17-23 sentyabr tarixində Polşada keçirilən H.Venyavski adına Beynəlxalq müsabiqədə II mükafata və müsabiqənin laureatı adına layiq görülmüşdür.

Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəvətinə əsasən 2009-cu il 11 noyabr tarixində Moskvada Beynəlxalq Musiqi Evində keçirilmiş MDB iştirakçı-dövlətlərin gənc klassik musiqi ifaçılarının konsertində Prezident təqaüdçüsü Elvin Xoca Qəniyev iştirak etmişdir.

2009-cu il 23-26 noyabr tarixlərində Bolqarıstanın Stara Zaqora şəhərində keçirilmiş gənc trubaçıların V beynəlxalq müsabiqəsində Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdləri, Prezident təqaüdçüləri İsrafil Rəsulov və Tural Quliyev uğurla iştirak etmiş, müvafiq olaraq Qran Pri mükafatına və diploma layiq görülmüşlər.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbinin şagirdi Zəhra Yusiflinin adı Azərbaycanın gənc istedadlarının «Qızıl kitabı»na yazılmış və o, Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülmüşdür.

## TURİZM

Hesabat dövrü ərzində ölkədə turizm sferasının inkişafı sahəsində bir sıra mühüm işlər görülmüş, ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyaların qəbul etdiyi sənədlərin icrası həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimiyyə Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ilk iclasının ilkin Protokol layihəsi və İordaniya tərəfindən yenidən işlənmiş Protokol Layihəsi, Azərbaycan və Ukrayna arasında 2000-2009-cu illər üçün uzunmüddətli iqtisadi əməkdaşlıq üzrə dövlətlərarası proqramın tədbirlərinin və İqtisadi əməkdaşlıq məsələləri üzrə Azərbaycan-Ukrayna Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclas Protokolu, İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Türkmənistan Hökumətlərarası Komissiyanın 2-ci iclas Protokolu və Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Protokolunda turizm üzrə nəzərdə tutulan maddələrin icrası ilə əlaqədar işlər davam etdirilmişdir.

İl ərzində Azərbaycan Respublikası ilə Küveyt Dövləti, Suriya Ərəb Respublikası, Latviya Respublikası arasında turizm sahəsində əməkdaşlıq üzrə Sazişlər imzalanmışdır.

Həmçinin, Azərbaycan Respublikasının müvafiq qurumlarından alınmış rəy və təkliflərə əsasən “Malayziya Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş” layihəsi, “Azərbaycan Respublikası Hökuməti ilə Malta Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş” layihəsi, “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr Baş Komissiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” layihəsi, “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Çin Xalq Respublikasının Milli Turizm Administrasiyası arasında Çin vətəndaşlarının Azərbaycana qrup səfərlərinin sadələşdirilməsi haqqında Anlaşma Memorandumu” layihəsi və “San Marino Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Saziş” layihəsi hazırlanmış, qarşı tərəflərə çatdırılmaq üçün onların Azərbaycan və ingilis dillərində olan mətnləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə təqdim edilmişdir.

“Rusiya Federasiyasının Hökuməti və Azərbaycan Respublikasının Hökuməti arasında Turizm sahəsində əməkdaşlıq haqqında Saziş” və “Azərbaycan Respublikası Hökuməti ilə Tunis Respublikası Hökuməti arasında Turizm sahəsində əməkdaşlıq haqqında Saziş” layihələrinin mətnləri Azərbaycan dilinə tərcümə edilmiş və aidiyyəti dövlət orqanlarından müvafiq rəy alınması üçün Nazirlər Kabinetinə göndərilmişdir.

2009-cu ilin 25-26 mart tarixində Bakı şəhərində BMÜTT -nin Avropa Komissiyasının 49-cu iclası və “İqtisadi böhranın turizm sektoruna təsiri: İddialar və cavablar” mövzusunda texniki seminar keçirilmişdir.

7 aprel 2005-ci il tarixində Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında imzalanmış turizm sahəsində əməkdaşlıq haqqında Sazişə əsasən Turizm üzrə Hökumətlərarası Birgə Komitənin 1-ci iclas Protokolunun icrası ilə bağlı iki ölkə arasında turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Yunanıstan Respublikasının Turizm Nazirliyi ilə birgə əməkdaşlığı, həmçinin Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin dəstəyi ilə cari ilin 02-06

fevral tarixlərində Bakı şəhərində "Qonaqpərvərlik və Turizm Sənayeləri üzrə yeni meyllər" mövzusunda seminar keçirilmişdir. Qeyd olunan seminar Yunanıstanın Turizm Nazirliyinin 9 mütəxəssisi tərəfindən "Hyatt Regency" mehmanxanasında aparılmış seminarda 114 (turizm şirkəti - 46, Azərbaycan Turizm İnstitutu - 21, Bakı Turizm İnformasiya Mərkəzi - 2, mehmanxana - 45) nəfər iştirak etmişdir. Tədbirin sonuncu günü Yunanıstan tərəfindən iştirakçılara rəsmi ziyafət verilmiş və müvafiq sertifikatlar təqdim olunmuşdur.

Cari ilin 15-17 aprel tarixlərində Şimali Kipr Türk Respublikasının Lefkoşa şəhərində keçirilən "İslam dünyasında turizmin inkişafı" üzrə seminarda respublikamızda fəaliyyət göstərən "Millennium Turizm Konqress" və "Bakı-Tur" turizm şirkətlərinin nümayəndələrinin iştirakı Nazirlik tərəfindən təmin edilmişdir.

2009-cu ilin 21-23 may tarixlərində Makedoniyanın Skopye və Negotino şəhərlərində keçirilən 4-cü Plenar görüşdə "Şərab, Mədəniyyət və Turizm mübadiləsi" layihəsinin icra müddətinin bitməsi ilə əlaqədar təklif edilmiş layihəni beynəlxalq səviyyədə idarə edəcək Beynəlxalq Assosiasiya, həmçinin "Şərab, Mədəniyyət və Turizm mübadiləsi" layihəsinin növbəti iclasının 2010-cu ilin birinci yarımilində Azərbaycanda keçirilməsi ilə əlaqədar Avropa Şurasının Mədəniyyət, Mədəni və Milli İrs Direktorluğuna məktub göndərilmişdir.

Avropa Şurasının "Kiyev təşəbbüsü" regional proqramı çərçivəsində həyata keçirilən "Şərab, Mədəniyyət və Turizm Mübadiləsi" beynəlxalq mədəni turizm marşrutu layihəsinə dair broşür hazırlanmışdır.

2009-cu ilin 18-19 mart tarixlərində Suriyanın Dəməşq şəhərində keçirilən "İKT-yə üzv dövlətləri arasında turizm sahəsində əməkdaşlıq və inkişafa dair çərçivə sənədi"nin yerinə yetirilməsi üzrə əlaqələndirmə komitəsinin iclasına dair təkliflər hazırlanmış və Xarici İşlər Nazirliyinə təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən cari ilin 15-22 aprel tarixlərində Almaniya və Mərakeşin, 27 aprel – 2 may tarixlərində Küveytin, 24-31 may tarixlərində Misirin və 23-28 iyun tarixlərində Yunanıstanın rəsmi turizm qurumları, turizm şirkətləri və kütləvi informasiya vasitələrinin nümayəndələri üçün infoturlar təşkil edilmişdir.

Cari ilin 25 may – 4 iyun tarixlərində Yunanıstanın Turizm Nazirliyi tərəfindən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, həmçinin ölkəmizdə fəaliyyət göstərən "Yevroturizm", "Xəzər Travel", "DeLux Travel", "Paşa Travel", "İsr Travel" və "Amerikan Express" turizm şirkətlərinin nümayəndələri üçün Afina və Kastoriya şəhərlərinə, həmçinin Krit və Eviya adalarına infotur təşkil edilmişdir.

Cari ilin 28-29 sentyabr tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında Turizm sahəsində əməkdaşlıq üzrə Birgə Komitənin ikinci iclası keçirilmişdir. İclasın keçirilməsində məqsəd turizm sahəsində iki ölkə arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dair qarşılıqlı müzakirələr aparmaq, Bakı ilə Afina arasında birbaşa hava reyslərinin təşkili, mehmanxana idarəçiliyi sahəsində çalışanlar üçün təlim kurslarının təşkili, Azərbaycan Turizm İnstitutunda təhsil alan tələbələrin Yunanıstanın qabaqcıl turizm şirkətlərində və mehmanxanalarında təcrübə keçmələri, Azərbaycan Turizm İnstitutunun tələbələri ilə Yunanıstanın müvafiq ali təhsil ocaqları arasında tələbə mübadiləsinin aparılması, viza rejiminin sadələşdirilməsi, həmçinin Azərbaycan və Yunanıstan arasında imzalanmış turizm sahəsində əməkdaşlıq haqqında Sazişdən irəli gələn məsələlərin müzakirəsindən ibarətdir. İclas çərçivəsində Azərbaycan və Yunanıstan arasında Birgə Komitənin protokolu imzalanmışdır.

2009-2010-cu illər üçün Azərbaycan Respublikasının GUAM-ın Turizm üzrə İşçi Qrupunda əlaqələndiriciliyi həyata keçirməsi ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən iki illik Fəaliyyət Planı hazırlanaraq qarşı tərəfə təqdim olunmuşdur.

Hesabat dövründə normativ-hüquqi aktların hazırlanması sahəsində bir sıra işlər aparılmışdır. Turizmin sistemli şəkildə inkişafını müəyyən etmək və ölkəmizdə zəngin olan mövcud tarixi, təbii və mənəvi dəyərlərdən daha səmərəli istifadə etmək üçün Nazirlik tərəfindən uzunmüddətli inkişaf proqramı hazırlanmışdır. Turizm sahəsi üzrə kadr hazırlığının yaxşılaşdırılması, yataq yerlərinin sayının artırılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi və ümumilikdə ölkəmizdə turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında 2010-2014-

cu illər üçün Turizmin inkişafına dair Dövlət Proqramı” Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Bununla yanaşı, “Turizm haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinin yeni variantının hazırlanması məqsədilə bir sıra işlər aparılmışdır. Belə ki, Qanun layihəsi ilə bağlı müvafiq dövlət qurumlarının rəy və təklifləri nəzərə alınmışdır. Həmçinin, layihənin son variantını hazırlamaq üçün işçi qrupu yaradılmışdır.

Turist-ekskursiya xidmətlərinin Dövlət Standartları hazırlanaraq təsdiq olunması üçün aidiyyəti üzrə təqdim olunmuş və Azərbaycan Respublikasının Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən iyul ayında təsdiq olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2008-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnaməsi”nin 3.1 bəndinə uyğun olaraq, turizm və rekreasiya zonalarının yaradılması məqsədilə respublikanın Quba, Qusar, Xaçmaz, Siyəzən, Dəvəçi və Xızı rayonlarında müəyyən olunmuş ərazilərə aid olan torpaqların rəsmi eksplikasiyasına uyğun olaraq mülkiyyət formaları haqqında məlumatlar əldə olunmuş və təkliflər Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)” çərçivəsində turizmlə bağlı görülən işlər barədə ümumi hesabat hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim olunmuşdur.

Zəngin turizm potensialına malik Azərbaycanın rayonlarında fəaliyyət göstərən turist xidməti obyektlərində göstərilən xidmətin səviyyəsi və mövcud infrastrukturun vəziyyətinin öyrənilməsi və təhlil edilməsi məqsədilə Nazirliyin mütəxəssisləri fevral-mart 2009-cu il tarixlərində 30 -a yaxın rayona ezam olunmuşlar. Mövcud problemlərin həll olunması məqsədilə aidiyyəti üzrə dövlət qurumlarına müraciət olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 23 aprel 2004-cü il tarixli Fərmanı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyul 2004-cü il tarixli Qərarına

uyğun olaraq, "Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılmasının keçirilməsi "Qaydalarına əsasən 31 mehmanxana və mehmanxana tipli obyektlər təsnifatdan keçmişdir.

Beynəlxalq info-turların təşkili çərçivəsində aprel ayında Almaniya, Mərakeş, may ayında Küveytin turizm şirkətləri və kütləvi informasiya vasitələri üçün, iyun ayında isə Mərakeşdə çalışan bir neçə xarici ölkə Səfirləri üçün info-tur keçirilmişdir.

Daxili turizmin inkişaf etdirilməsi istiqamətində Yanar Dağın və Nardaran qalasının turist marşrutuna salınması ilə bağlı abidələrə baxış keçirilmiş və marşrut ümumilikdə qiymətləndirilmişdir.

İyun ayında yay turizm mövsümünün təntənəli açılış mərasimi iyun ayında Novxanıda yerləşən Akva Park istirahət mərkəzində keçirilmişdir. Açılış mərasimində bir sıra diplomatik korpusun nümayəndələri, millət vəkilləri, dövlət qurumlarının nümayəndələri və turizm sənayesində çalışan əməkdaşlar iştirak etmişlər.

Eyni zamanda, yay turizm mövsümü zamanı avqust ayında turizm xidmət obyektlərində yerli və xarici turistlərə göstərilən xidmətin səviyyəsinin öyrənilməsi məqsədilə Nazirlik tərəfindən Monitorinq Komissiyası yaradılmış və həmin Komissiyanın üzvləri Azərbaycanın şimal (Quba, Qusar, Xaçmaz), şimal-qərb (Şəki, Oğuz, Qəbələ, İsmayıllı) və cənub (Masallı, Lənkəran, Lerik) regionlarına ezam olunmuşlar.

Monitorinqin nəticələrindən məlum olmuşdur ki, bir çox turist xidməti obyektlərində sanitar gigiyenik qaydalara riayət olunmaması, tullantı sularının axıdılması üçün kanalizasiya sisteminin qurulmaması, xidmət sahəsində çalışan kadrların ixtisas üzrə hazırlıq səviyyəsinin olduqca aşağı olması, standartlara uyğun xidmətin göstərilməməsi, rayon ərazilərində turistlər üçün nişanların qoyulmaması, yerləşdirmə obyektlərinə gedən qolların asfalt örtüyünün bərbad olması, turizm obyektlərinin turist şirkətləri ilə işləmək təcrübəsinin aşağı səviyyədə olması problemləri mövcuddur. Mövcud problemlərin aradan qaldırılması məqsədilə aidiyyəti üzrə işlər görülmüşdür.

Qusar rayonunda yerləşən “Şeyx Cüneyd məqbərəsi” və Şəki şəhərində yerləşən “Təpəbaşı Nekropolu və yaşayış yeri” tarix və mədəniyyət abidələrinin turizm inkişaf planları hazırlanmış və layihələrin həyata keçirilməsi ilə bağlı köməklik göstərilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət olunmuşdur.

Ümumdünya Turizm Gününün qeyd edilməsi ilə bağlı kütləvi informasiya vasitələri və turizm sənayesinin nümayəndələri üçün Azərbaycanın turizm potensialının təqdimatı və ziyafət təşkil olunmuşdur.

Cari ilin 23-29 oktyabr tarixlərində Fransanın 10 turizm şirkətlərinin rəhbərləri üçün infotur təşkil olunmuşdur. İnfotur iştirakçıları Bakı və Abşeron yarımadası ilə yanaşı, Şamaxı, İsmayıllı, Qəbələ və Şəkinin turizm potensialı ilə də tanış olmuşlar.

Hesabat dövründə müraciət edən 46 hüquqi şəxsin sənədlərinə baxılmış və onlara turizm fəaliyyətinə dair lisenziya verilmişdir. 01.12.2009 -cu il tarixinə respublikada 220 turizm şirkəti fəaliyyət göstərir.

Mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyəti ilə məşğul olmaq üçün 33 hüquqi və fiziki şəxslər tərəfindən təqdim edilmiş sənədlərə baxılmış və onlara mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya verilmişdir. Hal-hazırda 272 mehmanxana və mehmanxana tipli obyektlərə lisenziya verilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birgə əməkdaşlığı sayəsində cari ilin 04-10 may tarixlərində mehmanxana və restoran menecerləri və xidmət bölümləri müdirləri üçün “İdarəçilərin təlimçi olaraq hazırlanması”, “Sosial davranışlar”, “Yemək-içmək servisi”, «Qeyd-qəbul bölməsi» və “Yemək hazırlanması” mövzularında Qəbələ rayonunda seminar keçirilmişdir.

Kurslar müvafiq olaraq Şamaxı-Balakən rayonlarını əhatə etməklə keçirilmişdir. Seminarda mehmanxana və restoranların 105 nəfər əməkdaşı iştirak etmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi cari ilin 25-26 mart tarixlərində Bakı şəhərində Ümumdünya Turizm Təşkilatının (UNWTO) Avropa üzə Komissiyasının 49-cu iclası çərçivəsində “İqtisadi Böhranın Avropa Turizminə

Təsiri" mövzusunda Texniki Seminarın keçirilməsi ilə bağlı müvafiq işlər görülmüşdür.

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanunun tətbiqi haqqında" Əsasnamə layihəsinə və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanunun layihəsinə müvafiq təkliflər verilmişdir.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən daxil olmuş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında" Əsasnamə layihəsinə baxılaraq müvafiq təkliflər hazırlanmışdır.

Masallı rayonunda fəaliyyət göstərən "Dəştvənd" istirahət mərkəzində cari ilin may ayının 12-də cənub bölgəsinin rayon (şəhər) Mədəniyyət və Turizm şöbələrinin rəhbərlərinin iştirakı ilə xüsusi razılıq (lisenziya) almayan mehmanxana və mehmanxana tipli obyektlərin rəhbərləri ilə görüş keçirilmiş və bununla bağlı müvafiq hesabat hazırlanmışdır.

Azərbaycanda bələdçi-tərcüməçi və turizm bələdçisinin ixtisaslaşmalarını təsdiq edən professional attestasiyanın keçirilmə qaydaları və şərtləri haqqında Əsasnamənin layihəsi hazırlanmış və aidiyyəti üzrə işlər görülür.

Mehmanxana təsərrüfatının inkişafını təmin etmək və mehmanxana xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləmək məqsədilə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq "Azərbaycan Respublikasında mehmanxana xidmətlərinin göstərilmə Qaydaları" layihəsi hazırlanmışdır. Qeyd olunan sənəd layihəsi müvafiq Nazirliklərə təqdim olunmuş, rəy və təkliflər alınaraq yenidən Ədliyyə Nazirliyinə təqdim edilmişdir.

Quba, Xaçmaz, Masallı, Lənkəran, Astara, Lerik, Şamaxı, İsmayıllı, Qəbələ, Qax, Şəki və Zaqatala rayon (şəhər) Mədəniyyət və Turizm şöbələrinə aidiyyəti üzrə mehmanxana və mehmanxana tipli obyektlərdə göstərilən xidmətin qiymətini və obyektlərin yüklənmə faizini müəyyən etmək məqsədilə müvafiq olaraq məktublar göndərilmiş və əldə olunmuş məlumatların əsasında tərəfimizdən aidiyyəti üzrə təhlillər aparılmışdır.

Ölkədə turizmin davamlı inkişafı çərçivəsində müasir standartlara uyğun olan turizm xidməti infrastrukturunun yaradılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, çimərliklərdə yerli və xarici qonaqlara göstərilən xidmət səviyyəsinin daha da yaxşılaşdırılması məqsədilə çimərliklərin lisenziyalaşdırılmasına dair "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunun layihəsini yeni variantda Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə 2009-cu il ərzində Vyana, Madrid, İstanbul, Riqa, Berlin, Manama, Dubay, Honq-Konq, Pekin, Tokio, Paris, Daşkənd, London şəhərlərində və Mərakeş Krallığında keçirilmiş beynəlxalq turizm sərgilərində iştirak etmişik.

Həmçinin, cari ilin aprel ayının 16-18 tarixlərində Bakı şəhərində "AİTF" VIII Beynəlxalq Turizm sərgisi keçirilmişdir.

Belə tədbirlərdə əməkdaşlarımız bir qayda olaraq iştirakçı və qonaqlara Azərbaycanın turizm imkanlarını əks etdirən müxtəlif çap, audio və video məhsullarını, CD-ləri, reklam xarakterli kitabça və bukletləri hədiyyə edir. Eyni zamanda ölkəmizin turizm imkanlarını əks etdirən filmlər və reklam çarxları beynəlxalq turizm sərgilərində nümayiş etdirilmişdir.

23 fevral – 24 may 2009-cu il tarixlərində "Euro News" telekanalında respublika və onun turizm imkanları haqqında reklam çarxı yayımlanmışdır.

25 dekabr 2008-ci il tarixindən etibarən 2009-cu il ərzində "CNN" telekanalında 2009-cu il Bakı İslam Mədəniyyəti Paytaxtı elan olunduğu üçün reklam çarxı vaxtaşırı yayımlanır. Həmçinin, "CNN" telekanalında yanvar ayından başlayaraq imic reklam çarxı yayımlanır. Həmin reklam çarxlarının yeni versiyalarının hazırlanması üzərində işlər aparılır.

Rusiya Federasiyasının "Dünyaya səyahət" jurnalında Azərbaycan turizm imkanları haqqında reklam səhifələri 2009 -cu il ərzində dərc edilir. Həmçinin "The Times" və "Forbes" qəzetlərində respublikanın imic səhifələrinin yerləşdirilməsi ilə bağlı işlər aparılır.

2009-cu il üçün nəzərdə tutulan ABTA jurnalının sayında respublikanın turizm imkanları haqqında reklam səhifəsi dərc edilmiş və növbəti 2010-cu ilin buraxılışında yeni məlumatın yerləşdirilməsi ilə bağlı işlər aparılır.

İspaniyanın "Travel View" şirkəti tərəfindən ispan dilində Azərbaycan haqqında broşürlər hazırlanmış və çap olunmuşdur. Həmin broşürlər Madrid şəhərində fəaliyyət göstərən turizm şirkətlərinə və "Fitur" Beynəlxalq turizm sərgisinin iştirakçısı və ziyarətçilərinə paylanmışdır.

Cico.tv veb-saytında respublikanı təbliğ edən 6 dəqiqəlik film və 2009 -cu il "Bakı-İslam Mədəniyyəti Paytaxtı" elan olunmasına dair 30 saniyəlik video çarxı yerləşdirilmişdir.

## BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ MƏDƏNiYYƏT PROQRAMLARI

İSESKO-ya üzv dövlətlərin mədəniyyət nazirlərinin 21 -23 noyabr 2007-ci il tarixində Liviyanın Tripoli şəhərində keçirilmiş beşinci konfransının nəticələrinə görə, Bakı şəhəri 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. 2009-cu il fevral ayının 18-də Heydər Əliyev sarayında "Bakı – İslam Mədəniyyətinin Paytaxtı – 2009" mədəniyyət ilinin təntənəli açılış mərasimi keçirilmişdir. Tədbirə bir sıra Avropa və İslam dövlətlərinin şəhərlərinin meri, eyni zamanda mədəniyyət nazirləri dəvət edilmişdi. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, İSESKO-nun Baş direktoru Ə.O.Əl -Tuveycri və İKT -nın Baş Direktorunun müavini çıxış etmişlər.

Açılış mərasimi çərçivəsində fevralın 18 -i və 19 -u şəhərimizin mərkəzi meydanlarında şənliklər, "Bakı – İslam mədəniyyətinin paytaxtı – 2009" Veb-saytının və "Qədim Bakı" kitabının təqdimatı keçirilmiş, Bakı şəhəri haqqında foto və rəsm sərgisi təşkil olunmuşdur.

23 yanvar 2009-cu il tarixində Mədəniyyət və Turizm Nazirliyində N.Nərimanovun Tbilisi şəhərindəki Ev-Muzeyinin binasının yenidən qurulması (tikilməsi) ilə bağlı dövlətlərarası ikitərəfli müqavilə sənədi imzalanmışdır.

1 noyabr 2005-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş 60/7 saylı Qətnamənin icrası ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının İctimai İnformasiya Departamentinin Azərbaycandakı ofisinin və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin birgə əməkdaşlığı ilə 27 yanvar 2009-cu ildə Muzey Mərkəzində ABŞ Kino Akademiyasının Oskar mükafatına layiq görülmüş “Yadlar əlində: Uşaq Nəqliyyatı Hekayələri” adlı sənədli filmin nümayişi keçirilmişdir. Tədbir Holokost qurbanlarının xatirəsinə həsr olunmuş Beynəlxalq Anma Günü münasibətilə təşkil edilmişdir.

2009-cu il 2 fevral tarixində Muzey Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Fransanın “Maison des cultures du monde” Assosiasiyası arasında imzalanmış müqavilə əsasən istehsal olunmuş “Aşıq musiqisi antologiyası” diskinin təqdimat mərasimi keçirilmişdir.

Tədbir zamanı Fransa Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Qabriel Keller, Fransanın “Maison des cultures du monde” Assosiasiyasının əməkdaşı cənab Pyer Bua, Xalq Şairi Zəlimxan Yaqub və layihənin əlaqələndiricisi, YUNESKO-nun eksperti Sənubər Bağırova çıxış etmişlər.

Kuba Respublikasının mədəniyyət və turizm nazirlərinin dəvətinə əsasən 2009-cu il fevral ayının 25-dən mart ayının 1-dək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri Ə.Qarayevin rəhbərliyi altında nümayəndə heyəti Kuba Respublikasında səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan və Kuba arasında Hökumətlərarası Komissiyanın növbəti iclasın keçirilməsi, onun tarixləri, iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi, o cümlədən mədəniyyət və turizm sahələrində əməkdaşlığın inkişafı müzakirə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri zamanı 2009-cu ilin 10 mart tarixində Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında turizm sahəsində, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İran İslam Respublikasının İranın Mədəni İrsi, Xalq Tətbiqi Sənəti və Turizm Təşkilatı arasında mədəni irs sahəsində, Mirzə Fətəli Axundov adına Azərbaycan Milli

Kitabxanası və İran İslam Respublikasının Milli Kitabxanası və Arxivi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanmışdır.

2009-cu ilin mart ayının sonunda Xalq Şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri Zəlimxan Yaqubun başçılığı altında 8 nəfərdən ibarət nümayəndə heyəti Aşıq musiqisi konsertlərinin təşkili məqsədilə Fransa Respublikasının Paris və Strasburq şəhərlərinə səfər etmişlər.

İKT-nin Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə əlaqələndiricisi Leyla Əliyeva bu səfər çərçivəsində Avropa Şurasının Mədəniyyət, Təhsil, İdman və Gənclər üzrə Baş direktoru Gabriella Battaini Draqoni və İSESKO-nun baş direktoru Ə.O. Əltüveycri ilə görüşlər keçirilmişdir.

Belarus Respublikasının Minsk şəhərində keçirilmiş Azərbaycan -Belarus Birgə hökumətlərarası komissiyanın beşinci iclası zamanı "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş" sənədi imzalanmışdır.

2009-cu ilin 18-20 may tarixlərində Fransa Respublikasının Paris şəhərində YUNESKO-nun Baş Qərargahında "Mədəni müxtəliflik 2009" Beynəlxalq Festivalı çərçivəsində "Müxtəliflik Bayramı" konsert-tamaşası keçirilmişdir. Tədbirdə Respublikamızı tanınmış aşıqlardan ibarət qrup təmsil etmişdir.

Mayın 19-da Bakı şəhərində Azərbaycan ilə Kuba arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ikinci iclası keçirilmişdir.

İclasda iki ölkə arasında mədəniyyət, səhiyyə, iqtisadiyyat, ticarət, idman və digər sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə olunmuş və yaxın vaxtlarda tərəflərin imzalayacağı yeni sənədlərin layihələri ətrafında fikir mübadiləsi aparılmışdır.

İclasın nəticəsi olaraq Əbülfəs Qarayevlə Rikardo Gerrero Blanko Azərbaycan ilə Kuba arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ikinci iclasının yekunlarına dair protokol imzalamışlar. Sənəddə iqtisadiyyat, ticarət və i nvestisiya, sənaye və energetika, kənd təsərrüfatı, ekologiya və balıqçılıq, səhiyyə, təhsil,

mədəniyyət və turizm, rabitə və informasiya, idman və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər əksini tapmışdır.

2009-cu ilin may ayında Ukraynada Azərbaycan Mədəniyyət Günləri ilə bağlı keçirilən tədbirlər çərçivəsində həmin ölkənin Mədəniyyət və Turizm Naziri Vasil Vovkunla görüş keçirilmişdir. Mədəniyyət və turizm sahələrində gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi zamanı Azərbaycanda və Ukraynada keçiriləcək turizm sərgilərində hər iki ölkənin turizm şirkətlərinin iştirakının yüksək səviyyədə təmin olunması barədə razılıq əldə olunmuşdur.

Səudiyyə Ərəbistanı Krallığının “Əl-Cəzirə” dövlət qəzetinin baş redaktoru Xalid bin Həməd Əl Məlikin “Bakı -İslam Mədəniyyətinin Paytaxtı -2009” mədəniyyət ili çərçivəsində 2009-cu il 31 may – 7 iyun tarixlərində Bakıda səfərdə olmuşdur. Səfər zamanı Xalid bin Həməd Əl Məlik Azərbaycanın bir sıra tarixi mədəni abidələri ilə tanış olmuş və bu barədə “Əl-Cəzirə” dövlət qəzetində silsilə məqalələr dərc edəcəyini bildirmişdir. Səfər zamanı Xalid bin Həməd Əl Məliki Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev qəbul etmiş və mədəniyyət sahəsində fikir mübadiləsi aparılmışdır.

2009-cu ilin 8-11 iyun tarixlərində Azərbaycanda Qətər Dövlətinin Mədəniyyət Günləri keçirilmişdir.

Tədbirlə əlaqədar olaraq Qətərin Mədəniyyət, İncəsənət və İrs Milli Şurasının Baş Katibi cənab Mübarək Bin Nasir Əl-Xəlifə cari il iyunun 7-dən 12-dək Bakıda səfərdə olmuşdur.

Səfər çərçivəsində cənab Əl-Xəlifə Mədəniyyət və Turizm, habelə Xarici İşlər nazirləri ilə görüşmüş, iki ölkə arasında əməkdaşlıq perspektivlərini müzakirə etmişdir.

8 iyun 2009-cu il tarixdə Niderland Krallığının Haaqa şəhərində məşhur muzey-sərgi mərkəzi olan Museon-un konsert zalında Dirçəliş Gününə həsr edilmiş azərbaycanlı azyaşlı və gənc ifaçıların konserti ilə əlaqədar olaraq 31 nəfərdən ibarət nümayəndə heyəti 6-9 iyun tarixində Niderland Krallığına səfər etmişdir.

2009-cu ilin 15-18 iyun tarixlərində Paris şəhərində YUNESKO-nun Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair konvensiyasına həsr olunan

İkinci Sessiyada Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva iştirak etmişdir.

Tədbirdə nazir müavini Sevda Məmmədəliyeva Azərbaycan dövləti tərəfindən mədəniyyət, mədəni müxtəlifliyin qorunması sahəsində həyata keçirilən tədbirlər və mədəniyyətlərarası dialoqun təşviq olunması ilə bağlı təşəbbüsləri barəsində çıxış etmişdir.

2009-cu il iyun ayının 16-dan 19-dək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəsmi nümayəndə heyətinin Gürcüstana səfəri təşkil olunmuşdur.

Səfər zamanı Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Gürcüstan Respublikasının Prezidenti Mixail Saakaşvili tərəfindən qəbul edilmişdir. Görüşdə iki ölkə arasında mədəniyyət və turizm sahələrində əməkdaşlıq perspektivləri, habelə bəzi konkret layihələr, o cümlədən, cari ilin avqust ayında gənc musiqiçilərin qastrol səfərlərinin mübadiləsi müzakirə olunmuşdur.

2009-cu il 18-19 iyun tarixlərində Gürcüstanda Azərbaycan Mədəniyyət Günlərində, habelə Azərbaycan və Gürcüstan mədəniyyət xadimlərinin muzeyləri, mədəniyyət mərkəzləri və dövlət teatrlarının fəaliyyəti üzrə altkomissiyanın iclasında iştirak etmək məqsədilə Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyevin rəhbərliyi altında nümayəndə heyəti Gürcüstana səfər etmişdir.

Misir Ərəb Respublikasının MDB ölkələri üzrə Əməkdaşlıq Fondunun təşkilatçılığı ilə 2009-cu il 16-31 may tarixlərində ərəb mədəniyyəti sahəsi üzrə keçirilmiş təlim kurslarında Nazirliyin və tabe təşkilatların əməkdaşlarından ibarət 11 nəfərlik nümayəndə heyəti iştirak etmişdir. Qeyd edilən səfər çərçivəsində nümayəndə heyəti Misirin mədəniyyət və incəsənət sahəsində çalışan yüksək vəzifəli şəxslərlə görüşlər keçirmiş, onlar üçün Misirin ən məşhur görməli yerlərinə ekskursiyalar təşkil edilmişdir.

Rusiya Federasiyasının Moskva şəhərində keçirilən Azərbaycan Mədəniyyət Günlərində iştirak etmək məqsədilə mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayev 2009-cu il iyunun 29-dan iyulun 2-dək Moskvada səfərdə olmuşdur.

2009-cu il iyunun 30-da Moskva şəhərində Rusiya Federasiyasının Turizm üzrə Federal Agentliyinin rəhbəri A.Yaroçkin və həmin agentliyin sədr müavini A.Rudakovla görüş keçirildi. Görüş zamanı Rusiya turizm firmaları üçün Azərbaycanda info-turların təşkil olunması, 2009-cu ilin oktyabr ayının axırlarında Azərbaycan Respublikasında keçirilməsi nəzərdə tutulan Rusiya Federasiyasının Mədəniyyət Günlərində turizm sahəsinin təmsil olunması, Rusiya tərəfinə rəsmi şəkildə təqdim olunmuş «Turizm sahəsində əməkdaşlıq haqqında Saziş»in 2010-cu ilin mart ayında Moskva şəhərində keçirilən «İntermarket» turizm sərgisində imzalanması və bir sıra digər məsələlər müzakirə olunmuşdur.

İyulun 1-də «Vokruq Sveta» Nəşriyyatının direktoru Leonid Naumov ilə Azərbaycan haqqında turizm üzrə bələdçi kitablarının çapı və yayılması məqsədilə müvafiq müqavilə imzalanmışdır.

Həmin gün Moskvanın «Kolonnıy Zal»ında Azərbaycan Mədəniyyət Günlərinin rəsmi açılışı keçirilmişdir. Açılışda Rusiya Federasiyasının mədəniyyət nazirinin müavini cənab A.Qolutva və Rusiya Federasiyası Prezidentinin Mədəniyyət üzrə xüsusi nümayəndəsi cənab M.Y.Şvıdkoy iştirak etmişlər.

2009-cu il iyul ayının 1-də Rusiya Federasiyasının Mədəniyyət naziri cənab A.A.Avdeyev ilə görüş keçirilmiş və iki ölkə arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Azərbaycanın mədəniyyət və turizm potensialının xarici ölkələrdə təbliği sahəsində informasiya siyasəti Mədəniyyət və Turizm Nazirliyinin ən vacib fəaliyyət istiqamətlərindən biridir. Bununla bağlı nazirlik tərəfindən Avropa, Asiya, Yaxın Şərq və Amerika kimi regionların 70 aparıcı nəşriyyat və poliqrafiya müəssisəsi ilə əməkdaşlıq qurulur və bir neçə xarici nəşriyyat vasitəsilə Azərbaycanın mədəniyyəti, tarixi, turizm potensialı və digər sahələrini tam şəkildə əhatə edən bələdçi kitabları xarici dillərdə hazırlanır.

Hazırda Nazirliklə "Vokruq sveta", "Mondeos" və "Hedonist" nəşriyyatları arasında müqavilə bağlanılmış, "Explorer Publishing" arasında bağlanılacaq müqavilə üzərində iş gedir.

"Vokruq sveta" nəşriyyatı tərəfindən Azərbaycana həsr olunmuş turistlər üçün bələdçi-kataloqun hazırlanması ilə bağlı həmin şirkətin ekspert-müəllifi Y. Şükinanın cari il mayın 07-dən 17-dək ölkəmizə səfəri təşkil edilmişdir.

2009-cu ilin 8 iyul tarixində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Avropa Şurasının Bakıdakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Avropa Şurasının 60 illik yubiley ili çərçivəsində "Azərbaycan -Avropa Şurası mədəni əməkdaşlığı: imkanlar və perspektivlər" mövzusundakı mərasim keçirilmişdir. Mərasimdə cari ilin 7-11 iyul tarixlərində Bakıda səfərdə olan Avropa Şurasının Mədəniyyət, Mədəni və Təbii İrs üzrə direktoru cənab Robert Palmerin rəhbərliyi ilə nümayəndə heyəti, xarici ölkələrin Bakıdakı səfirliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin təmsilçiləri, bir sıra dövlət qurumları və vətəndaş cəmiyyətlərinin nümayəndələri iştirak etmişdir. Mərasimdə Avropa Şurasının 60 illik fəaliyyəti, Azərbaycan ilə təşkilat arasında mövcud olan mədəni əməkdaşlığın vəziyyəti müzakirə olunmuşdur. Mərasim bitdikdən sonra günün ikinci yarısı Avropa Şurasının "Sənətçilər dialoq naminə" layihəsinə həsr olunun I Ekspert Görüşü keçirilmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti 2009-cu il 10-12 avqust tarixlərində MDB -nin iştirakçı ölkələrinin Mədəni əməkdaşlıq üzrə Şurasının XXIV iclasında iştirak etmək məqsədilə Tacikistan Respublikasının Düşənbə şəhərində səfərdə olmuşdur.

Azərbaycan xalqının zəngin xalçaçılıq ənənələrinə malik olmasını nəzərə alaraq xalçaçılıq sənətinin də YUNESKO -nun Ümumdünya Qeyri-maddi İrsinin Reprezentativ Siyahısına daxil edilməsi və beynəlxalq səviyyədə təbliği məqsədilə Nazirlik tərəfindən tədbirlər həyata keçirilmişdir.

Nazirliyin əməkdaşları və AMEA -nın böyük elmi işçisi, YUNESKO-nun eksperti Sənubər Bağırova 2009-cu ilin 28 sentyabr - 02 oktyabr tarixində BƏƏ-nin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Komitəsinin 4-cü sessiyasında iştirak etmişdir. Azərbaycan Aşıq sənəti və Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irsin Representativ siyahısına daxil edilmişdir.

Bununla yanaşı qeyd olunan dövr ərzində İsrail, Suriya və Belarus kimi ölkələrlə mədəniyyət və turizm sahələrində müvafiq müqavilələr imzalanmışdır.

Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin 2009-cu il 4-6 oktyabr tarixində Avstriyaya səfəri çərçivəsində oktyabrın 6-da Vyanada Avstriyanın Təhsil, İncəsənət və Mədəniyyət üzrə Federal Naziri Klaudia Şmidtlə görüş keçirilmişdir. Görüş çərçivəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Avstriya Respublikasının Təhsil, İncəsənət və Mədəniyyət üzrə Federal Nazirliyi arasında mədəniyyət və incəsənət sahələrində 2009-2012-ci illər üçün əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

"Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" Mədəniyyət ili çərçivəsində Bakı şəhərində 2009-cu ilin 13-15 oktyabr tarixində İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransı keçirilmişdir.

Konfransda ümumilikdə 42 ölkədən 20 nazir, 10 nazir müavini və digər rəsmi şəxslər, 17 beynəlxalq və regional təşkilatın (İSESKO, İslam Konfransı Təşkilatı, Avropa Şurası, Beynəlxalq Miqrasiya Təşkilatı, Beynəlxalq İslam Xeyriyyə Təşkilatı və s.) nümayəndələri, bir sıra universitet və akademiyaların rəhbərləri, xarici ölkələrin Azərbaycandakı səfirlikləri, Azərbaycan hökumətinin üzvləri iştirak etmişdir.

Konfransın açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin konfrans iştirakçılarına müraciəti Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev tərəfindən oxunmuşdur. Bununla yanaşı İSESKO-nun baş direktoru Ə.O.Əl-Tuveycri, İslam Konfransı Təşkilatının baş katibinin müavini Əbdülmoiz Buxari, Liviyanın Mədəniyyət naziri Nuri Həmidi açılış nitqi ilə çıxış etmişlər.

Açılış mərasimindən sonra İslam ölkələri mədəniyyət nazirləri konfransına sədrlik Liviyadan Azərbaycan Respublikasına keçmişdir.

Konfransın ilk günü İSESKO, Azərbaycan və Avropa Şurasının vasitəçiliyi ilə İslam Konfransı təşkilatına üzv dövlətlər ilə bir sıra Avropa dövlətləri arasında "Bakı prosesi: sivilizasiyalar arasında dialoqa yeni çağırış" mövzusunda dəyirmi masa təşkil

edilmişdir. Dəyirmi masanın sonunda yekun kommunike qəbul edilmişdir. Kommunikedə İslam dünyası ilə Avropa arasında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, bu sahədə layihə və proqramların həyata keçirilməsi, həmçinin münaqişə regionlarında mədəni irsin qorunması ilə bağlı birgə tədbirlərin görülməsi məsələləri öz əksini tapmışdır.

Bundan sonra konfransın Birinci İşçi sessiyası öz işinə başlamış və İKT -yə üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri İslam Dünyası üçün Mədəni Strategiyanın həyata keçirilməsi sahəsindəki səyləri barədə məruzələrlə çıxış etmişlər.

Konfransın iştirakçıları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmişdir.

Konfransda qəbul edilən İslam dünyasında təhlükə altında olan mədəni və dünyəvi irsin qorunmasına dair qətnamədə erməni işğalçılarının işğal etdikləri Azərbaycan torpaqlarında İslam irsinin məhv edilməsi məqsədi ilə həyata keçirdikləri vandalizm hərəkətləri pislənmiş və BMT -nin 822, 853, 874 və 884 saylı qətnamələrini Ermənistan Respublikası tərəfindən dərhal və şərtsiz yerinə yetirilməsi tələb olunmuşdur.

İslam Mədəniyyəti Paytaxtları Proqramının həyata keçirilməsinin davam etdirilməsi ilə bağlı müzakirələrdə Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur.

"Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" Mədəniyyət ili çərçivəsində 16-17 oktyabr 2009-cu il tarixində Bakı şəhərində TÜRKSOY mədəniyyət nazirləri Daimi Şurasının XXVI toplantısı keçirilmişdir.

Tədbirdə ümumilikdə 8 ölkənin və ölkə vilayətlərinin nazir, nazir müavinləri və mədəniyyət üzrə digər məsul rəsmi şəxsləri, xarici ölkələrin Azərbaycandakı Səfirliklərinin nümayəndələri, Azərbaycan hökumətinin üzvləri və yerli ictimai təşkilatların təmsilçiləri iştirak etmişlər.

Tədbirin ilk günü Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Ə.Qarayev TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının Dövri Koordinatoru kimi açılış nitqi ilə çıxış etmişdir. Bununla yanaşı TÜRKSOY -un Baş Direktoru,

Başqırdıstan Respublikası Baş nazirinin müavini-mədəniyyət naziri, Şimali Kipr Türk Respublikasının mədəniyyət naziri, Qazaxıstan, Türkiyə və Tatarıstanın mədəniyyət nazirlərinin müavinləri, Qırğızıstan və Qaqauz Yerinin Mədəniyyət nazirliklərinin məsul şəxsləri təbrik sözlərini tədbir iştirakçılarının diqqətinə çatdırmışlar.

Rəsmi açılışdan sonra ötən dövr ərzində TÜRKSOY-un ümumi və maliyyə fəaliyyətləri və görülmüş işlər barədə yekun hesabatlar müzakirə edilmişdir.

Müzakirə olunan məsələlər TÜRKSOY fəaliyyətinin məqsəd və prinsipləri, TÜRKSOY-un heyəti və maliyyə fəaliyyəti haqqında Əsasnamələr, TÜRKSOY-un yerləşdirilməsi, yerli və xarici heyətin statusu haqqında Protokol və s. olmuşdur.

İclasın yekun Bəyannaməsində 3 oktyabr 2009-cu il tarixində Naxçıvan Muxtar Respublikasında keçirilmiş türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısında qəbul edilmiş "Naxçıvan Bəyannaməsi" dəstəklənmiş, türk mədəniyyəti irsinin qorunması və inkişaf etdirilməsi ilə bağlı fəaliyyətlərin genişləndirilməsi, TÜRKSOY-un Avropa Şurası, İSESKO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmaq niyyəti müsbət qarşılanmış, dünya mədəni irsinin qorunması məqsədilə irəli sürülən regional və beynəlxalq təşəbbüslər bəyənilmiş, türk mədəniyyəti irsinin bütün münaqişəli regionlarda məhv edilməsi pislənmiş, mədəniyyətlərarası dialoqun təşviqinə dair "Bakı Prosesi"ndə fəal iştirakın vacibliyi qeyd edilmişdir.

İclasın sonunda TÜRKSOY Daimi Şurasının növbəti XXVII dövrü üzrə Koordinator Moldova Respublikasının Qaqauz Yeri mədəniyyət idarəsinin rəisi Dmitri Kambur seçilmiş və XXVII toplantının 2010-cu il 6-8 may tarixində Komrat şəhərində keçirilməsi qərara alınmışdır.

2009-cu il 3 dekabr tarixində Muzey Mərkəzində Azərbaycan Aşıq sənəti və Novruz bayramının namizədlik fayllarının və Aşıq sənətinə həsr olunmuş kitabça və kompakt disklərin təqdimat mərasimi keçirilmişdir. Mərasimdə dövlət qurumlarının nümayəndələri, AMEA-nın əməkdaşları, ziyalılar, xarici ölkələrin səfirləri iştirak etmişlər.

2009-cu il 18 dekabr tarixində Bakı şəhərində "Bakı -İslam Mədəniyyətinin Paytaxtı-2009" Mədəniyyət ilinin bağlanışı ilə əlaqədar olaraq bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, İncəsənət muzeyində "Vokruq sveta" nəşriyyatı

tərəfindən istehsal edilmiş "Azərbaycan" bələdçi kitabının təqdimatı, həmçinin Bakı haqqında rəsm sərgisi keçirilmişdir. Heydər Əliyev adına Sarayda "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" Mədəniyyət ilinin rəsmi bağlanış mərasimi təşkil edilmişdir.

## İNVESTİSİYA VƏ TEXNİKİ PROQRAMLAR

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında», «Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında», «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» Sərəncamları ilə bağlı aidiyyəti üzrə müvafiq tədbirlər həyata keçirilmişdir.

Dövlət proqramlarında, Prezidentin və Nazirlər Kabinetinin Sərəncamlarında nəzərdə tutulan mədəniyyət və turizm obyektlərinin layihələndirilməsi, inşası, bərpası, təmiri və yenidənqurulması ilə bağlı müvafiq işlər görülmüşdür. Bu obyektlərin sırasında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrını, Azərbaycan Dövlət Film Fondunu, Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyini və başqalarını qeyd etmək olar.

Bakı şəhərində və regionlarda aparıcı teatr-konsert, muzey və s. müəssisələrin təmir-bərpa və yenidənqurulması işlərinin, yeni obyektlərin tikintisinin müasir tələblərə uyğun aparılması ilə əlaqədar olaraq şöbə yerli və xarici şirkətlərlə müvafiq danışıqlar aparmış, müvafiq müqavilələr imzalama üçün hazırlamışdır.

Qusar rayonunun ərazisində «Şahdağ» Qış-Yay Turizm Kompleksi yaradılması ilə bağlı aşağıda qeyd olunan işlər həyata keçirilmişdir:

- 9 qaldırıcı qurğunun hazırlanması, alınması quraşdırılması işlərinin satınalınması proseduru başa çatdırılmış nəzərdə tutulan işlərin həyata keçirilməsinə başlanılmışdır;
- xarici su təchizatı və kanalizasiya sistemlərinin, xarici elektrik-ötürücü xətlərinin layihələndirilməsi, xarici qaz xəttinin çəkilməsi üzrə layihə-smeta sənədləri hazırlanmış və tikinti-quraşdırma işlərinə başlanılmışdır;

- kompleksin ərazisində Avstriya nın İLF Beratende Ingenieure ZT GmbH şirkəti tərəfindən geoloji kəşfiyyat işləri sona çatmışdır ;

- kompleksin yaradılmasının birinci mərhələsi üzrə İsveçrənin Swiss Town Consult AG şirkəti tərəfindən layihələndirmə işləri davam edir;

- tenderin nəticəsi olaraq seçilən baş podratçı DİA Holding FZCO tərəfindən kompleksin yaradılmasının birinci mərhələsi üzrə tikinti -quraşdırma işlərinə başlanılmışdır;

- kompleksin birinci mərhələsi ilə bağlı süni qarlaşdırma sisteminin layihələndirilməsi, istehsalı və quraşdırılması üzrə tender prosedurlarına hazırlıq işləri başlanmışdır.

17 sentyabr 2009-cu il tarixdə Qusar rayonunun mərkəzindən 30 kilometr şimalda, Şahdağ Milli Parkı ərazisində yerləşəcək Şahdağ Qış -Yay Turizm Kompleksinin təməlqoyma mərasimi keçirilmiş, mərasimdə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

Şahdağ Qış-Yay Turizm Kompleksinin tikintisi dağ xizək idmanı, digər qış və yay idman və istirahət növləri ilə məşğul olmaq üçün geniş imkanlar yaradacaqdır. Kompleksin ərazisində tennis, futbol və basketbol meydançaları, örtülü idman qurğuları, aquapark və hovuzlar, əyləncə -oyun kompleksləri olacaqdır, istirahətə gələnlərə piyada və at ilə gəzinti və digər xidmətlər təklif ediləcəkdir.

Milli Akademik Dram Teatrı ilə Dövlət Opera və Balet Teatrının səhnə mexanikasının və başqa sistemlərin yenidənqurulması üzrə Avstriya və Alman mütəxəssisləri ilə müvafiq məsləhətləşmələr və danışıqlar aparılmışdır. Nəticə olaraq Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında nəzərdə tutulan işlər həyata keçirilir. Cari ildə «Nizami» kinoteatrının binasında təmir, yenidənqurma işləri davam etdirilir.

«AİKON CPİT» MMC şirkəti tərəfindən Bakı şəhərində «Muğam Evi» binasının tikintisi başa çatdırılmış və obyekt təhvil verilmişdir. Həmin şirkətin qüvvəsi ilə hazırda Xalça Muzeyinin yeni binası inşa olunur. Bundan əlavə «Azkond» MMM tərəfindən Azərbaycan Dövlət Film Fondu binasının tikintisi başa çatdırılmış və bina istifadəyə verilmişdir.

Cari ildə tikintisi, təmiri, yenidənqurulması planlaşdırılan 25 obyektdən 13-ndə işlər başa çatdırılmış və istismar üçün təhvil verilmişdir.

**İQTİSADİYYAT**

Mədəniyyət və Turizm Nazirliyinə 2009-cu ilə təsdiq olunmuş büdcə vəsaitinin büdcədən maliyyələşən müəssisələr arasında bölgüsü aparılmışdır.

Teatr-tamaşa müəssisələrinin əsas və köməkçi göstəricilərinin və büdcədən ayrılan vəsaitinin bölgüsü hazırlanmış və təsdiq olunmuşdur.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 yanvar 2009-cu il tarixli 20s saylı Sərəncamının icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin o cümlədən, "Mərkəzi aparat", "Mədəniyyət və Turizm", "Təhsil" bölmələrinin xərc maddələri nəzərə alınmaqla paraqraflar üzrə 2010-cu il və sonrakı 3 il üzrə büdcə və büdcədənkənar layihələri hazırlanmışdır.

«Mədəniyyət» və «Turizm» sahəsində hazırlanan proqramlara dair təkliflərin və bu proqramların maliyyə təminatı ilə bağlı müvafiq işlər görülmüşdür.

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanaların, klub müəssisələrinin, uşaq musiqi məktəblərinin və digər statistik hesabatların 2008-ci il üzrə toplu (yekun) hesabatları hazırlanmış və Dövlət Statistika Komitəsinə təqdim olunmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin klub müəssisələrinin, muzey və qoruqlarının, turizm informasiya mərkəzlərinin nümunəvi ştatları yeni struktura uyğun hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Mədəni-maarif, turizm müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası hazırlanıb Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təsdiq olunmuş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Dövlət qeydiyyatına alınmışdır.

Mədəni-maarif müəssisələrinin 2010-cu il üzrə şəbəkə proqnozlarının layihələrinin təhlili aparılmışdır.

Rüblər üzrə 5 istehlak (elektrik və istilik enerjisi, təbii qaz və rabitə xidmətləri), 11 yanacaq nömrəli hesabatları qəbul edilmiş və onun toplusu Dövlət Statistika Komitəsinə təqdim edilmişdir.

İllik hesabatlara hazırlıqla əlaqədar işçilər təlimatlandırılmış, statistik formaların hazırlanması, çoxaldılması və yerlərə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamlarına əsasən kapital qoyuluşu üzrə büdcə vəsaitinin açılması təmin edilmişdir.

## KADRLARLA İŞ

Mədəniyyət və turizm sahəsində dövlət kadr siyasətinin həyata keçirilməsi istiqamətində Nazirlik tərəfindən «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununun, «Azərbaycan Respublikasının Dövlət Qulluqçularının Reyestrinin aparılması Qaydaları»nın və bu məsələyə aid digər normativ-hüquqi aktların icrası ilə bağlı zəruri işlər görülmüşdür.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 2009-cu il ərzində elan edilmiş müsahibəyə və müsabiqəyə 17 vakant yer (müvafiq olaraq 12 və 5 yer) təqdim olunmuşdur.

İnzibati vəzifələrin altıncı təsnifatına uyğun olan vakant yerlərin tutulması məqsədilə keçirilən müsahibələrdən müvəffəqiyyətlə keçən namizədlər işlə təmin olunmuşdur.

Müsabiqəyə təqdim olunan 5 yerə ümumilikdə 70 namizəd müraciət etmişdir (o cümlədən Hüquq sektoruna 15, İncəsənət şöbəsinin musiqi sektoruna 5, Kadrlar şöbəsinə 12, İqtisadiyyat şöbəsinin əmək haqqı sektoruna 18, İşlər şöbəsinə 20 nəfər). Test mərhələsindən 12 nəfər, söhbət mərhələsindən isə 3 nəfər keçmişdir (kadrlar

şöbəsinə -1, iqtisadiyyat şöbəsinin əmək haqqı sektoruna -1, hüquq sektoruna -1). Nəticədə 1 nəfər iqtisadiyyat şöbəsinin əmək haqqı sektoruna işə qəbul edilmişdir.

Hesabat dövründə komissiyanın ehtiyat kadr siyahısında olan 3 nəfər namizəd işlə təmin olunmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin vəzifələr nomenklaturasında xidməti zərurətlə əlaqədar müvafiq dəyişikliklər edilmişdir. O cümlədən 11 vəzifə (4 nömrəli Şəki Elmi-Bərpa İstehsalat İdarəsinin rəisi, Gəncə Dövlət Nizami Poeziya Teatrının direktoru, baş rejissoru, baş rəssamı, baş mühasibi, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru, direktor müavini, baş rejissoru, baş rəssamı və baş mühasibi, Milli Parkın direktoru vəzifələri) Nazirliyin vəzifələr nomenklaturasından çıxarılmış, 21 vəzifə isə (Azərbaycan Dövlət Filarmoniyasının nəzdində fəaliyyət göstərən Kamera və Orqan Musiqi Zalının direktoru, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktor müavini, Qobustan şəhər, Siyəzən, Tovuz, Qazax rayonlarının Heydər Əliyev muzeylərinin, Ağstafa Heydər Əliyev Muzey -Mərkəzinin, Qobustan şəhər Tarix-Diyarşünaslıq Muzeyinin direktor və baş mühafizləri, Zaqatala rayon Turizm İnformasiya Mərkəzinin direktoru, Beynəlxalq Muğam Mərkəzinin direktoru, direktor müavini, baş mühəndis, baş mühasibi, Ağcabədi rayon "Qarabağ Muğam Mərkəzi"nin və Bərdə Uşaq İncəsənət Məktəbinin direktoru vəzifələri) Nazirliyin vəzifələr nomenklaturasına daxil edilmişdir

Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, təkmilləşdirilməsi, müasir dövrün tələbatlarına və standartlarına uyğun olaraq qurulması məqsədilə Mədəniyyət siyasəti şöbəsinin klub, parklarla iş, xalq yaradıcılığı və milli kulinariyanın təbliği sektorunun bazasında qeyri-maddi mədəni irs sektoru yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2006-cı il tarixli 420 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət Qulluqçularının Reyestrinin aparılması Qaydaları»na uyğun olaraq hər ay nazirliyin əməkdaşları haqqında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya məlumatlar göndərilir.

Mədəniyyət və Turizm Nazirliyində, rayon (şəhər) mədəniyyət və turizm şöbələrində (idarələrində) olan inzibati vəzifələrin vəzifə təlimatları hazırlanaraq, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilmişdir.

2009-cu il ərzində Nazirliyin nomenklaturasına daxil olan vəzifələrə 82 nəfər yeni işçi təyin edilib, həmin müddət ərzində 35 nəfər işçi müxtəlif səbəblərdən tutduqları vəzifələrdən azad ediliblər.

Hesabat dövründə Nazirliyin 7 əməkdaşı sınaq müddətlərinin bitməsi ilə əlaqədar daimi dövlət qulluğuna qəbul edilmiş və onlara 2-ci dərəcəli dövlət qulluqçusu ixtisas dərəcəsi verilmişdir.

Nazirliyin 21 əməkdaşının vəzifə maaşına Dövlət qulluğundakı stajları ilə bağlı əlavə haqqın ödənilməsi təmin edilmişdir.

İl ərzində Nazirliyin 15 əməkdaşı haqqında əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə bağlı sənəd qəbul edilmişdir. Onlardan 5 nəfər əməkdaşın əmək qabiliyyətini müvəqqəti itirilməsi ilə bağlı müavinətlərinin dövlət sosial sığorta haqları hesabına ödənilməsi, 2 nəfər əməkdaşın isə uşağa qulluqla əlaqədar müavinətlərinin alınması təmin olunmuşdur.

Dövlət qulluqçularının ixtisasartırma üzrə ehtiyaclarının müəyyən edilməsi və onların treninqlərə cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkil etdiyi seminarlarda əməkdaşların iştirakları təmin edilmişdir. Belə ki, il ərzində nazirliyin 7 əməkdaşı müxtəlif mövzularda, o cümlədən:

- bir nəfər əməkdaş 16-21 fevral tarixlərində «Dövlət qulluğunun təşkilati əsasları və dövlətin kadr siyasəti» mövzusunda;
- iki nəfər əməkdaş 02-07 mart tarixlərində «Azərbaycan Respublikasının xarici siyasəti» mövzusunda;
- bir nəfər əməkdaş «İnvestisiya proseslərinin dövlət tənzimlənməsi və dövlətin maliyyə-kredit siyasəti» mövzusunda;
- bir nəfər əməkdaş 05-17 oktyabr tarixlərində «Azərbaycan Respublikasında Gənclər Siyasəti» mövzusunda;

- iki nəfər əməkdaş 02-14 noyabr tarixlərində «Dövlətin sosial siyasəti: mahiyyət, prioritetlər və həyata keçirilməsi mexanizmləri» mövzusunda keçirilən seminarlarda iştirak etmişlər.

iki nəfər əməkdaş Nazirliyin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında «Dövlət və bələdiyyə idarəetməsi» ixtisası üzrə qiyabi təhsil üçün həmin təhsil müəssisəsinə qəbul edilmişlər.

Həmçinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Hərbi Akademiyasının Strateji tədqiqatlar və dövlət müdafiəsini idarəetmə akademik kurslarında nazirliyin əməkdaşının iştirakı təmin edilmişdir.

Brona alınma işləri ilə əlaqədar təlimata uyğun olaraq Nazirliyin və tabeliyində olan təşkilat və müəssisələrin əməkdaşlarının 2008-ci il üçün hərbi uçotu haqqında statistik məlumatlar ümumiləşdirilərək aidiyyəti üzrə təqdim edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi ilə birgə işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin, onların münasib işlə təminatının gücləndirilməsi məqsədilə cari ilin 4-5 dekabr tarixlərində təşkil etdiyi «Əmək Yarmarkası»nda təklif olunmaq üçün Nazirliyin tabeliyində olan müəssisə və təşkilatlarda mövcud vakant vəzifələrin siyahısı tutulmuş və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir.

Bununla yanaşı «Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 19 mart 2009-cu il tarixli 44 nömrəli Qərarına müvafiq olaraq, cari ildə yenidənhazırlanma və ixtisasartırma kurslarında iştirak edəcək nazirlik əməkdaşları üçün tələb olunan mövzuların siyahısı Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilmişdir.

## ANALİTİK TƏHLİL VƏ PROQRAM TƏMİNATI

«Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2009-2013-cü illər)»nın həyata keçirilməsinin

Milli Fəaliyyət Planına daxil edilməsi üçün layihələr hazırlanmış və müvafiq işlər aparılmışdır.

Nazirliyin Veb səhifəsində məlumatların yeniləşdirilməsi işləri mütəmadi olaraq həyata keçirilmişdir.

Nazirliyin kompyuter şəbəkə sistemində yenidənqurma işləri aparılmışdır. Məktublara, sənədlərə, ezamiyyələrə nəzarət sistemləri yaradılmış və istifadəyə verilmişdir. Proqramla işləmək, məlumat bazasına informasiyaları daxil etmək məqsədilə müvafiq şöbələrin əməkdaşlar üçün treninq kurslar keçirilmişdir. Fevral ayından başlayaraq sənədlər, ərizə və şikayətlər sistem vasitəsi ilə məlumat bazasına daxil edilir və onların təhlili aparılır.

Hazırda 147 saylı telefon məlumat sisteminin işi təmin edilir, sistemin təkmilləşdirilməsi işləri davam etdirilir. Sistem yay turizm mövsümü haqqında məlumatların alınması üçün Bakı Turizm İnformasiya Mərkəzi ilə əlaqənin yaradılmasına və lazımı məlumatların əldə edilməsinə imkan yaratmışdır. İndiyə qədər sistemə 240000 zəng daxil olmuşdur. Turizm mövsümü ilə əlaqədar Turizm informasiya mərkəzinə 30900 zəng daxil olmuşdur. Sistemə 20 şikayət və müraciət daxil olmuşdur. Bununla yanaşı sistem vasitəsilə telefon konferanslarının keçirilməsi məsələləri həll edilmişdir. Sistem vasitəsilə zəng edilərək kütləvi xəbərdarlıq və təbriklərin bildirilməsi prosesləri tətbiq edilmişdir.

"Bakı - İslam Mədəniyyətinin Paytaxtı -2009" Veb səhifəsinin bir il müddətində idarə edilməsi üçün 6 nəfərdən ibarət işçi qrup yaradılmışdır. Fevral ayının 18-də saytın təntənəli açılış mərasimi keçirilmişdir.

Turizm portalının proqram hissəsinin hazırlanması işi sona çatdırılmışdır. Hazırda saytın son əsl variantı azerbaijan.tourism.az domen adı ilə internetə yerləşdirilmişdir.

Nazirliyin rəsmi Veb saytı Dövlət saytları arasında may ayında keçirilən "NETTY" müsabiqəsində I yeri, dekabrda keçirilən "MİLLİNET" müsabiqəsində isə III yeri tutmuşdur.

5-9 oktyabr tarixində İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən keçiriləcək Telekom World 2009 beynəlxalq

sərgisində Nazirliyin mədəniyyət və turizm sahəsində tətbiq etdiyi sistemlərin nümayiş etdirilməsi üçün müvafiq işlər görülmüşdür.

Nazirlikdə istifadə edilən kompyuterlərə yeni proqram təminatları qoşulduqda əməkdaşlara mütəmadi olaraq yeni proqramlarla işləmək üçün müvafiq təlimatlar təqdim edilmişdir.

Regionlarda mədəniyyət sahəsində informasiya texnologiyalarının tətbiqi ilə zonalar üzrə seminarlar təşkil olunmuşdur.

Azərbaycan Respublikası ərazisində yerləşən və xüsusi əhəmiyyət kəsb edən heykəllərin, monumental heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin reyestrinin yaradılması üçün "Texniki Şərt" toplusu hazırlanmışdır.

Turizm naviqasiya sisteminin hazırlanması işləri davam etdirilmişdir.

## REGiONLARLA İŞ

2009-cu ilərzində Azərbaycanın bütün regionlarında mədəniyyət və turizm sahələrinin intensiv inkişafına nail olmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirmiş, bölgələrdə mədəni həyatın müasir tələblər səviyyəsinə yüksəldilməsinə çalışmışdır.

Lənkəran şəhər, Astara, Masallı, Cəlilabad, Lerik, Yardımlı rayon mədəniyyət və turizm şöbələrinin, mədəniyyət müəssisələrinin fəaliyyəti aprelin Nazirliyin 19-da Lənkəranda, Gəncə şəhər Mədəniyyət və Turizm idarəsinin, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy, Göygöl, Samux rayon mədəniyyət və turizm şöbələrinin, mədəniyyət müəssisələrinin fəaliyyəti iyunun 18-də Gəncədə, Sumqayıt şəhər Mədəniyyət və Turizm idarəsinin və Abşeron rayon mədəniyyət və turizm şöbəsinin, mədəniyyət müəssisələrinin fəaliyyəti dekabrın 3-də Xırdalanda keçirilən Nazirliyin səyyar kollegiya iclaslarında müzakirə edilmişdir.

Hesabat dövründə Şirvan, Naftalan şəhər, Ağsu, Zərdab, Neftçala, Tərtər, Şamaxı, Qəbələ, Kəlbəcər, Göyçay, Oğuz, Sabirabad, Xocavənd və Siyəzən rayon mədəniyyət və turizm şöbələrinin fəaliyyəti təhlil və müzakirə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2006-ci il tarixli 490 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının vətəndaşlarının həqiqi hərbi xidmətə çağırılması ilə əlaqədar Bakı, Gəncə, Sumqayıt şəhər mədəniyyət və turizm idarələri, şəhər, rayon mədəniyyət və turizm şöbələri tərəfindən çağırış dövründə respublika toplanış məntəqəsində, rayon, şəhər hərbi komissarlıqlarının çağırış məntəqələrində bədii-özfəaliyyət kollektivlərini, konsert briqadalarını və incəsənət ustalarını cəlb etməklə mədəni hamilik işi aparılması barədə şəhər, rayon mədəniyyət və turizm şöbələrinə tövsiyələr verilmişdir.

Mədəniyyət və Turizm Nazirliyi üzrə «2004-2008-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın yerinə yetirilməsi ilə bağlı son beş ildə yeni yaradılmış mədəniyyət müəssisələri, habelə əsaslı təmir olunmuş və yeni bina ilə təmin olunmuş müəssisələr barədə məlumatlar hazırlanmışdır.

Ekologiyanın və biomüxtəlifliyin qorunması barədə mədəniyyət və turizm müəssisələri tərəfindən son beş ildə görülmüş işlərlə bağlı arayış hazırlanmış və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunmuşdur.

«Azərbaycan Respublikasında demoqrafiya və əhalinin sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı»nın icrası ilə bağlı 2004-2008-ci illərdə kənd yerlərində mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülmüş işlər haqqında məlumat Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur.

Mart ayının 20-də Bakı şəhərində keçirilmiş «Novruz» bayramı şənliklərində Dəvəçi rayon mədəniyyət evinin «Çıraq-qala», Şamaxı rayon mədəniyyət evinin «Şirvan», Salyan rayon mədəniyyət evinin «Cəngi» xalq milli nəfəs alətləri ansambllarının və Zaqatala rayon mədəniyyət evinin «Kəndirbazlar» xalq sirk kollektivinin iştirakı təmin edilmişdir.

Cari ilin aprel ayında respublikanın şəhər və rayonlarında milli musiqi alətləri ifaçılarının IV respublika müsabiqəsi keçirilmiş, may ayında Mingəçevir və Yevlax şəhərlərində müsabiqənin yekun turları təşkil edilmişdir.

Novruz bayramı, 28 may Respublika günü, 15 iyun Qurtuluş günü, 20-21 sentyabr Ramazan bayramı, 18 oktyabr Dövlət Müstəqilliyi günü, 12 noyabr Konstitusiya günü, 17 noyabr Milli Dirçəliş günü, 27-28 noyabr Qurban bayramı günü, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı ərəfəsində Salyan rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri ilə rayon mədəniyyət evində görüşlər keçirilmişdir və onlara ərzaq yardımı göstərilmişdir.

May ayının 5-də Qubada, may ayının 6-da Qusarda, may ayının 19-da Gədəbəydə, iyul ayının 22-də Balakəndə, iyul ayının 23-də Qax və noyabr ayının 25-də Lerikdə Nazirliyin rəhbər işçilərinin kənd mədəniyyət işçiləri ilə görüşləri keçirilmişdir.

«Doğma diyar uşaqların gözü ilə» adlı foto və rəsm festivalı çərçivəsində iyun ayında Quba, Qusar, Xaçmaz, Dəvəçi, Siyəzən, Xızı rayonlarında tədbirlər keçirilmişdir, iyunun 25-də isə Qubada seçilmiş foto və rəsm əsərlərindən ibarət yekun tədbir və sərgi təşkil edilmişdir.

İyunun 29-da «Elektron hökumət» Dövlət Proqramına hazırlıq məqsədilə şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) işinin təşkilində informasiya texnologiyalarının tətbiqi ilə bağlı Lənkəran şəhərində Lənkəran şəhər, Astara, Masallı, Cəlilabad, Lerik, Yardımlı rayon Mədəniyyət və Turizm şöbə müdirlərinin və müəssisə rəhbərlərinin iştirakı ilə seminar keçirilmişdir (Analitik təhlil və proqram təminatı şöbəsi ilə).

İyun ayında respublikanın şəhər və rayonlarında «Yaşadığım dünya» adlı əlillərin yaradıcı aksiyası və «İstedadlı uşaqlar» Proqramı çərçivəsində sərgilər, ədəbi-bədii gecələr, müsabiqələr, konsertlər və s. Keçirilmiş, dekabrın 14-də Şəkidə əlillərin əl işlərindən ibarət sərgi təşkil olunmuşdur.

İyulun 17-dən 24-dək Şəkidə Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Lənkəran şəhər, Abşeron, Qax, Quba, Qəbələ, Xaçmaz rayonlarında keçirilmiş rəsm müsabiqələrinin qaliblərinin iştirakı ilə rəssamlıq simpoziumu keçirilmiş, gənc rəssamların yaradıcılıq emalatxanası, praktiki və nəzəriyyə məşğələləri təşkil edilmişdir.

İyulun 30-da «Elektron hökumət» Dövlət Proqramına hazırlıq məqsədilə şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) işinin təşkilində informasiya texnologiyalarının tətbiqi ilə bağlı Gəncədə Gəncə, Yevlax, Naftalan şəhər, Ağstafa, Qazax, Daşkəsən, Tovuz, Şəmkir, Gədəbəy, Göygöl, Samux rayon mədəniyyət və turizm idarə və şöbə müdirlərinin, müəssisə rəhbərlərinin iştirakı ilə seminar keçirilmişdir (Analitik təhlil və proqram təminatı şöbəsi ilə). Tədbirdə turizm məqsədli coğrafi informasiya sisteminin yaradılması ilə bağlı bölgələrdə mədəniyyət obyektlərinin, tarixi abidələrin, təbiətin coğrafi koordinatlarını peyk vasitəsi ilə təyin etmək məqsədilə rayon mədəniyyət və turizm şöbələrinə texniki avadanlıq paylanılmışdır.

Fevral ayında Gəncə və Sumqayıt şəhər mədəniyyət və turizm idarələrinə əvəzsiz olaraq inventar verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın, «Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanılması və ətrafının abadlaşdırılmasına dair «Tədbirlər Planı»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2009-cu il tarixli 444 nömrəli Sərəncamının icrası ilə əlaqədar regionlarda mədəniyyət və turizm obyektlərinə aid təmir-tikinti, bərpa-yenidənqurma layihələrinin hazırlanmasında funksional və normativ tələblərin yerinə yetirilməsi, müvafiq mütəxəssis rəy və təkliflərin, tövsiyələrin nəzərə alınması məqsədilə həmin layihələrin əvvəlcə «eskiz layihəsi» mərhələsində, daha sonra bütövlükdə Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırılması barədə rayon İcra Hakimiyyətlərinə müraciət edilmişdir.

Klub müəssisələrinin fəaliyyətinin tənzimlənməsi məqsədilə «Klub müəssisələri haqqında», «Mədəniyyət və istirahət parkları haqqında», «Xalq özfəaliyyət kollektivləri haqqında», «Texniki yaradıcılıq və bədii özfəaliyyət kollektivləri haqqında», «Maraq klubları və həvəs birlikləri haqqında», «Mədəniyyət və istirahət parkları nəzdində «Asudə vaxt» mədəni xidmət bürosunun yaradılması haqqında»

əsasnamələrin, «Dərnək rəhbərlərinin iş saatının müddəti barədə», «Muzey və muzey tipli müəssisələrin şöbə müdirləri və elmi işçiləri üçün ekskursiya və mühazirə yükü normaları haqqında», «Mədəniyyət evləri və mədəniyyət və istirahət parkları nəzdində fəaliyyət göstərən bədii-tərtibat emalatxanalarının rəssamlarının iş şəraiti və əməyinin ödənilməsi şərtləri haqqında», «Mədəniyyət evi və klubların musiqi alətləri, texniki vasitələr və digər inventarlarla təchiz olunmasının təxmini siyahısı barədə», «Klub tipli müəssisələrdə musiqi alətləri, texniki vasitələr və digər inventarların təxmini istifadə müddətləri barədə», «Əhaliyə göstərilən pullu xidmətlərin tarif və normaları haqqında», «Şəhər, rayon, kənd mədəniyyət evi və klublarının musiqi alətləri, texniki vasitələr və digər inventarlarla təchiz olunması üçün xərclərin maliyyələşdirilməsi normaları haqqında» təlimatların hazırlanması məqsədilə təkliflər hazırlanmışdır.

«İstedadlı uşaqlar» müsabiqəsinin qaliblərinin iştirakı ilə Bərdə şəhərində oktyabr ayının 29-da, Şamaxıda dekabrın 28-də, Qəbələdə isə oktyabrın 29-da yekun tədbirləri keçirilmişdir.

Noyabr ayının 5-də Ağsu şəhərində, 6-da isə Göyçay şəhərində yaradıcılıq görüşləri təşkil olunmuşdur.

Noyabr ayının 19-dan 22-dək Yevlax şəhərində «Azərbaycanım mənim» vətənpərvərlik mahnıları ifaçılarının müsabiqəsinin yekun turu keçirilmişdir.

Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı ərəfəsində sərhədyanı bölgələrdə yerləşən hərbi hissələrin şəxsi heyətinin və qaçqın şəhərciklərində məskunlaşmış məcburi köçkünlərin respublikanın mədəni həyatında yaxından iştirakının, onların asudə vaxtlarının səmərə li təşkilinin təmin olunması, onlara göstərilən mədəni xidmətin gücləndirilməsi məqsədilə 16-17 dekabr 2009-cu il tarixində Beyləqan və İmişli rayonlarında «Qış nağılı» adlı bayram tədbiri təşkil edilmişdir.

2009-cu ərzində Azərbaycan Respublikası Pre zidentinin müvafiq Sərəncamlarına uyğun olaraq 5 sənətçi Prezident təqaüdlərinə, 100 incəsənət xadimi – Prezident mükafatına layiq görülmüş, 1 nəfər – Xalq Artisti, 7 nəfər – Əməkdar

İncəsənət Xadimi, 46 nəfər - Əməkdar Artist, 1 nəfər – Əməkdar Rəssam, 16 nəfər - Əməkdar Mədəniyyət İşçisi fəxri adları ilə təltif olunmuşlar.

2009-cu ildə Mədəniyyət və Turizm Nazirliyinə ümumi 6607 sənəd – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından – 264, Milli Məclisdən – 19, Nazirlər Kabinetindən – 727, xarici ölkələrdən – 672, MDB ölkələrindən – 239, müxtəlif yerli təşkilatlardan – 3218, vətəndaşlardan – 1450 məktub və müraciət daxil olmuşdur. Bütün sənədlər lazımi qaydada icra olunmuş, məktub və müraciətlərə vaxtlı-vaxtında cavab verilmişdir. İl ərzində Nazirliyin Kollegiya iclaslarında 34 məsələ müzakirə edilmişdir.